www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 30 oktyabr 2015-ci il Cümə № 241 (6269) Qiyməti 40 qəpik

**Xəbər**

## Bakıda 22 yaşlı qız öldürüldü, qohumları morqa hücum etdi

yazısı səh.13-də

**Gündəm**

### Müsavatın seçkidən çəkilmək qərarı aranı qatdı

Bəzi tanınmış namizədlər geri çəkilməyəcəklərini bəyan etdilər; Müsavat rəhbərliyi ayın 31-nə qədər vaxt qoydu; MSK: "Müsavatın qərarının hüquqi qüvvəsi yoxdur"

yazısı səh.6-da

### Əli Abbasovun işdən çıxarılması xəbəri təsdiqlənmədi

yazısı səh.4-də

### MTN-də 740 min dolları alınan iş adamı baş prokurorla görüşdü

yazısı səh.13-də

### ADP sədri dialoqun alınmamasında Moskvanı suçlu görür

yazısı səh.7-də

### Azərbaycanda "istefa mədəniyyəti" niyə yoxdur?

yazısı səh.11-də

### Məmur övladları üçün tramplin - Milli Məclisdə iş...

yazısı səh.10-da

### ABŞ Senatındakı dinləmələr hakimiyyəti hərəkətə keçirdi

yazısı səh.7-də

*Adil Əliyev:*

### "Seçicilərimə inanıram!"

yazısı səh.5-də

### Xədicə İsmayılın məhkəməsi 20 gün sonraya qaldı

yazısı səh.2-də

### Noyabrda 3 gün iş olmayacaq

yazısı səh.11-də

### Bakıda həmsədrlər üçün "soyuq duş"

yazısı səh.8-də

## Rabitə Nazirliyinin dünya telefon xəttinə çıxışı olan məmuru həbs edildi

# MTN-İN "RABİTƏ ÇETESİ" BEYNƏLXALQ DANIŞIQLARI DA DİNLƏYİB - SKANDAL

RN-in Beynəlxalq Əlaqələr və Hesablaşma Mərkəzinin direktoru Cəlil Cəfərovun həbsi ilə bağlı sensasion iddialar; qərbyönümlü məmur kimi tanıdılan Eldar Mahmudov üçün daha çox "şimaldan gələn zənglər" maraqlı ola bilərdi...




yazısı səh.4-də

# İrəvan və Tiflis Bakıya qarşı məkrli anlaşma içində

Bu gün Ermənistan prezidenti Gürcüstana gedir; əsas hədəf iki ölkənin səyləri ilə və İran hesabına Azərbaycan qazından asılılığı aradan qaldırmaqdır; Sərkisyanın İlham Əliyevdən 4 gün qabaq Tiflisdə olması təsadüfdümü?..

yazısı səh.9-da



*Pənah Hüseyn:*

### "Müşavirədə Eldar Mahmudov prezidentə yalandan deyib ki..."

yazısı səh.3-də



Vidadi Zeynalov

### Həbs edilən aparat rəhbəri haqda yeni bilgilər

yazısı səh.4-də



### Putin Azərbaycanı indi də İŞİD-lə hədələyir

yazısı səh.12-də










# Ramil Usubov polisi gücləndirilmiş iş rejiminə keçirdi

**Azərbaycan polisi gücləndirilmiş iş rejiminə keçib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən APA-nın sorğusuna cavab olaraq bildirilib ki, bununla bağlı daxili işlər naziri, general-polkovnik Ramil Usubov müvafiq əmr imzalayıb.**



Əmrə əsasən, noyabrın 1-də Azərbaycanda keçiriləcək parlament seçkiləri ilə əlaqədar polis oktyabrın 28-dən noyabrın 3-dək gücləndirilmiş iş rejimində xidmət aparacaq.

Seçki günü ictimai asayişin təmin edilməsi ilə əlaqədar olaraq post-patrul xidməti naryadlarının sayı artırılacaq.

## Xədicə İsmayılın məhkəməsi 20 gün sonraya qaldı

**Oktyabrın 29-da Bakı Apelyasiya Məhkəməsində jurnalist Xədicə İsmayılın apelyasiya şikayəti üzrə məhkəmə prosesi keçirilib. Virtualaz.org saytının xəbərinə görə, prosesə hakim İlqar Murğuzov sədrlik edib. Hakim bildirib ki, Xədicə İsmayıl məhkəmənin ilkin baxış iclasının qərarını oktyabrın 18-də alıb və həmin qərardan kasasiya şikayəti verilməyib. Onun bu qərardan 1 ay müddətinə kasasiya şikayət vermək hüququ var.**

Həmin müddət başa catmadığına görə proses noyabrın 19-na kimi təxirə salınıb.

Qeyd edək ki, X.İsmayıl jurnalist Tural Mustafayevin şikayəti əsasında saxlanılıb. T.Mustafayevin intihara cəhd etməsi ilə bağlı Səbayel Rayon Prokurorluğunda fakt əsasında Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb və bu ittiham üzrə 5 dekabr, 2014-cü ildə X.İsmayıl barəsində 2 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.

Sonradan X.İsmayıla qarşı Azərbaycan Baş Prokurorluğu tərəfindən Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və israf etmə - külli miqdarda törədildikdə), 192.2.2 (qanunsuz sahibkarlıq), 213.1 (vergi ödəməkdən yayınma) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə yeni ittihamlar elan olunub.

Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə X.İsmayıla qarşı 125-ci maddə üzrə verilmiş ittihama xitam verilib, digər maddələr üzrə təqsirli hesab edilərək 7 il 6 ay müddətinə azadlıqdan məhrum edilib. Hökmdən narazı qalan X.İsmayıl apelyasiya şikayəti verib. Şikayətdə onun barəsindəki cinayət işinə xitam verilməsi və azadlığa buraxılması tələb olunur.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;

## Asim Mollazadə Rusiyanın aparıcı KİV-lərinin nümayəndələri ilə görüşüb

**Demokratik İslahatlar Partiyasının sədri, 1 noyabr 2015-ci ildə Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək seçkilərdə 22 saylı Nəsimi ikinci seçki dairəsindən namizəliyi irəli sürülmüş Asim Mollazadə Rusiyanın müxtəlif telekanallarından və agentliklərindən olan jurnalistlərlə görüşüb. Demokratik İslahatlar Partiyasının mətbuat xidmətinin məlumatına görə, görüş zamanı Asim Mollazadə partiyanın fəaliyyəti, seçki platformasındakı prioritet təşkil edən məsələlər barədə məlumat verib. Bundan əlavə, DİP sədri Azərbaycandakı seçkiqabağı ictimai-siyasi vəziyyət, Azərbaycan-Rusiya münasibətləri, perspektivlər, ölkəmizin beynəlxalq siyasəti, müxtəlif istiqamətlərdəki strategiyaları, Qarabağ problemi və s. barədə fikirlərini bölüşüb.**

Sonda jurnalistləri maraqlandıran suallara ətraflı cavab verib.

❑ **Vüqar MURAD**

## Hava kəskin soyuyacaq: rayonlarda sulu qar, qar yağacaq

**Oktyabrın 30-da Azərbaycan ərazisində hava şəraiti yağmurlu olacaq, bəzi rayonlarda sulu qar, qar yağacağı gözlənilir.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti bildirir ki, oktyabrın 30-da Bakıda və Abşeron yarımadasında fasilələrlə yağış yağacağı gözlənilir. Arabir güclənən şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq.

Havanın temperaturu Abşeron yarımadasında gecə 9-11, gündüz 12-15, Bakıda gecə 9-11, gündüz 12-14 dərəcə isti olacaq.

Azərbaycanın rayonlarında da arabir yağış yağacağı, bəzi yerlərdə intensiv olacağı, yüksək dağlıq rayonlarda sulu qara, qara keçəcəyi gözlənilir. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 9-11, gündüz 12-15, dağlarda gecə 0-4, gündüz 4-7 dərəcə isti olacaq.

## Bakıda "Formula 1" hazırlıqları

**2016-cı ildə Bakıda baş tutacaq "Formula 1" yarışlarının keçirilməsi ilə əlaqədar olaraq, bəzi yolların asfalt örtüyündə dəyişiklik olunmasına ehtiyac var.**



Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzindən "APA-Economics"ə verilən məlumata görə, bunu məqsədlə paytaxtın Xaqani küçəsinin Puşkin küçəsi ilə kəsişməsindən R. Behbudov küçəsi ilə kəsişməsinə qədər olan hissəsi nəqliyyat vasitələrinin hərəkəti üçün bir müddət bağlı olacaq.

Qeyd edək ki, "Formula 1" yarışları ilə bağlı dəyişiklik ediləcək yollar, təmirə bağlanacaq növbəti küçə və ya prospektlər haqda bir neçə gün öncədən ictimaiyyətə məlumat veriləcək.

## Yanvarda 40 faiz müəllimin maaşı artırılacaq

**"Azərbaycanda artıq 20 faiz müəllimin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi keçirilib". APA-nın xəbərinə görə, bunu təhsil naziri Mikayıl Cabbarov deyib.**



Nazir bildirib ki, Azərbaycanın 3 böyük şəhəri və 9 rayonunda müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirməsinin keçirilməsi üçün hazırlıq işləri başa çatmaq üzrədir: "Əgər işlər qaydasında getsə, 2016-cı ilin yanvar ayından etibarən təxminən 40 faiz müəllimin əmək haqlarının artırılması planlaşdırılır".

Təhsil naziri əlavə edib ki, bu il Azərbaycan Dövlət Pedaqoji Universitetinə qəbul olunan 188 nəfər tələbə 500-dən çox bal toplayıb: "Qeyd edim ki, əvvəl 19 nəfər 500-dən çox bal toplamışdı. Habelə işə qəbulla bağlı əvvəlki illərdə 17 min nəfər müraciət etmişdisə, bu il işə qəbulla bağlı 24 min nəfər müraciət edib. Bu isə 2 ilə müəllimlik peşəsinə marağın 41 faiz artdığını göstərir".

## Moldovada hökumət istefaya göndərilib

**Moldovada hökumət istefaya göndərilib. APA-nın "Interfax"a istinadən verdiyi məlumata görə, bu gün parlamentdə keçirilən səsvermənin nəticəsi olaraq baş nazir Valeri Streletsin başçılıq etdiyi hökumətə etimadsızlıq göstərilib.**

Nazirlər Kabinetinə etimadsızlıq göstərilməsi haqqında qətnamənin lehinə 101 deputatdan 65-i səs verib. Onlar müxalif Sosialistlər Partiyası, Kommunistlər Partiyası və Demokratik Partiyadan ibarət fraksiya üzvləridir.

Hökumətə etimadsızlıq göstərilməsi barədə qətnamə layihəsi parlamentə oktyabrın 22-də Sosialist və Kommunist partiyalarının üzvləri tərəfindən təqdim olunub.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33



## "A.M.A.Y. Abdulla"nın işi Avropa Məhkəməsinə çıxarıla bilər

**"A.M.A.Y." ticarət mərkəzinin sahibi Abdulla Abdullayevin vəkili Osman Kazımov mətbuat konfransı keçirib.**

O. Kazımov hüquqlarını müdafiə etdiyi şəxsə 13 il azadlıqdan məhrumetmə cəzasının verilməsini "qanunsuz" adlandırıb. Onun sözlərinə görə, məhkəmə hökmünün qanunsuz olması haqda sübutlar var: "Uzun sürən məhkəmə prosesi başa çatdı. Məhkəmə hökmündə göstərilib ki, dəymiş ziyan ödənilib. Amma yazılıb ki, ziyanın ödənilməsi Abdulla Abdullayevə şamil olunmasın. Digər şəxslər tərəfindən ziyanın ödənilməsi nəzərə alınır, ancaq Abdulla Abdullayevdə bu iş nəzərə alınmır.

Cinayət işinin materiallarında göstərilir ki, "Texnikabank"dan götürülmüş kredit tamamilə ödənilib. Sahibkarlığa Kömək Milli Fondunun nümayəndəsi də məhkəmə prosesində götürülən kreditin bir qisminin nəğd ödənildiyini bildirib. Ancaq bütün bunlara baxmayaraq, "Texnikabank" və fond borcla bağlı Baş Prokurorluğa müraciət edib".

**Vəkil qeyd edib ki, A. Abdullayev barəsində olan cinayət işinin qanunsuzluğu həm də ondan ibarətdir ki, cinayət işi materialı olmadan, ərizə daxil olmadan cinayət işi başlanılıb:** "Biz hesab edirik ki, bu işin arxasında yüksək vəzifəli şəxs dayanır. Abdulla Abdullayev barəsində bir gün ərzində cinayət işi başlanılıb. Abdulla Abdullayevə qarşı absurd olaraq bir evin iki nəfərə satılması ittihamını irəli sürürlər. Halbuki məhkəmədə ifadə verən mənzil sahibləri Abdulla Abdullayevi tanımadıqlarını və hazırda onlara satılan mənzillərdə yaşadıqlarını bildiriblər. Onun barəsində məhkəmədən öncə həbs-qətimkan tədbirini seçmək üçün ayrı-ayrı çağırış vərəqələri hazırlanıb ki, guya onu istintaqa dəvət ediblər, o isə gəlməkdən imtina edib".

Vəkil Azərbaycan məhkəmə instansiyalarında bu işə düzgün qiymət verilməsə, Avropa Məhkəməsinə müraciət edəcəklərini deyib.

A.Abdullayev ötən il aprelin 4-də həbs olunub.



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Pənah Hüseyndən 1 noyabr seçkiləri ilə bağlı sensasion açıqlama

## "Müşavirədə Eldar Mahmudov prezidentə yalandan deyib ki..."

**AXP sədri Pənah Hüseyn "Yeni Müsavat"ın suallarını cavablandırdı.**

***- Pənah bəy, bu gün seçki kampaniyası başa çatır. Müsavat Partiyası seçkiləri boykot etdi. "REAL" seçkinin nəticələrini tanımayacağını bildirdi. "Azadlıq- 2015"in deputlığa namizədlərinin əksəriyyəti də seçkidən çəkilmiş kimi görünürlər. Belə bir şəraitdə sizin əvvəlki seçkidə iştirak qətiyyətiniz və optimizminiz yenə qalırmı?***

- Mən son kütləvi görüşü Sabirabad şəhərində keçirdim. Necə ki, Quruzma bələdiyyəsi ərazisində stadiondakı açıq hava görüşüm builki seçki kampaniyasında bütün respublika üzrə iştirakçıların sayına, tərtibata, energetikasına görə bir nömrə oldu, sonuncu, qapalı zaldakı görüşümüz də əminliklə deyə bilərəm ki, müqayisəsiz bir nömrə oldu. Hərçənd ki, bu görüşü qapalı zal görüşü də adlandırmaq doğru deyil. 300 nəfərlik stulu olan zalda 200-dən çox adam da ayaq üstə yerləşdi və 100-dən çox adam da həyətdə qaldı. Məcbur qalıb pəncərələri açıb səsgücləndiriciləri həyətə yönləndirməli olduq. Bundan əlavə, əvvəllər də bu tipli tədbirləri çox görmüş biri kimi deyə bilərəm ki, görüş misilsiz idi. Himn çalınanda, çıxışlarda dualar ediləndə, çoşqulu alqışlar zamanı nə qədər adam duyğulanmışdı, təsəvvür edə bilməzsiniz. Hər birində 200-dən çox seçicinin iştirak etdiyi daha üç açıq hava görüşü və bir qapalı zal görüşüm olmuşdu. Məhəllələrdə, çayxanalarda, bazarda, küçələrdə, evlərdə yüzlərlə görüşlərimiz olub və bu son gün də davam edir. Odur ki, tam cəsarətlə deyirəm ki, seçicinin səsini almaq problemini həll edə bilmişik. Təxminən 2005-ci il səviyyəsində səs almam gözlənilir. Belə bir şəraitdə rəqiblərimin mənə çatması tamamilə qeyri-mümkündür.

***- Bəs nə əcəb davam edirlər?***

- Bilirsiniz, mən bir neçə gün əvvəl demişdim ki, Sabirabadda belə vəziyyətin olması təkcə Pənah Hüseyn amili ilə yox, onunla bağlıdır ki, insanlar inanıb ki, bu dairədə halal seçki olacaq. Adamlarda belə bir rəy formalaşıb ki, bu dairə xüsusi nəzarətdədir və odur ki, bir ürəklənmə effekti var. Bizə təbliğat-təşviqat zamanı da elə bir maneçilik olmayıb və yoxdur. İndi YAP-ın namizədi üçün görüşlərin təşkilində ənənəvi birtərəflilik var, ancaq bunun namizədlərinin xeyrinə, yoxsa zərərinə olması mübahisəlidir. Bir var insanlar öz iradələri ilə görüşə gələ, bir də var zorla gətirilə. Mən deyim ki, bizə müxalifət səsləri ilə yanaşı, xeyli bitərəflərin, hakimiyyətə loyal yanaşanların, hətta bir çox YAP üzvlərinin səslərini verməsi gözlənilir. Odur ki, seçici səsi ilə şansı olmayanlar son günlərdə təbliğat və təşviqatı bir tərəfə buraxıb saxtakarlığa kurs götürüblər. Hər halda, bizdə yaranan təəssürat odur ki, ən azı bu günə yuxarıdan verilən "ustanovka" olmayıb əsas etibarı ilə özfəaliyyətdir. Burdakı əsas rəqibimizin bir qardaşı var. Zakir adlı. Son günlər neçə mənim təyin elədiyim komissiya üzvünün, müşahidəçinin, vəkilin üstünə onu-bunu göndərir ki, nə qədər istəyirsiniz verirəm, Pənah Hüseynin tərəfindən seçki günü çəkilin, işimizi görək. Onsuz da fondun *(mən bilmirəm hansı fondun)* pulunu verməsik. Mən onu çoxdan tanıyıram. Əvvəllər ədəbli, hamıya istiqanlı yanaşanın biri idi. İndi bir az pullanıb, görünür, oriyentirləri itirib. Məsələn, Rövnəq Abdullayevin yanında sabirabadlı Həbib adlı bir təchizatçı var. Onun Faiq adlı qardaşı gəlib mənim adamıma deyir ki, Zakir deyir, qiymətini desin. Biz araşdırdıq, bu Zakir heç Həbibə özü birbaşa çıxmayıb, SOCAR-da bir vitse-prezident var, adı da yalan, ya doğru, məlum təriqət işində hallanır. Onun vasitəsilə çıxıb həmin deyim Həbibə. Lap ekzotik şeylər də olur. Hay düşdü ki, bəs bizimkilərdən birinin yanına Zakir Abdolbori Gözəli minnətə və vasitəçiliyə göndərib. Təbii, inan-

Ya Kaliqadan "avtoritet" gətirdib oturdacaq məntəqənin qabağında. Tam bir əyalət məzhəkəsin. Elə bilirlər ki, mandat da metrodan alınan saxta diplom kimi şeydir, alıb idarə müdiri işləmək olduğu kimi, pulla mandat alıb, deputat da işləmək olar. Mənə pis gələn odur ki, bəzi adamlar hesab edir ki, insanların ehtiyacda olmasından istifadə edib onların şərəfi, ləyaqəti, heysiyyətinə toxunmaq, oynamaq olar, əlinə beş-üç manat hardansa oğurluq-doğurluq olması məlum olmayan var düşübsə, xalqı ayaqlayıb keçə bilərsən. Mən bunu heç vaxt bağışlamaram. Hər halda, mütləq əksəriyyət onların ağzından vurub vəd etdikləri pula da qatıq almağı məsləhət görüblər. Bu yolla bir şey edə bilməzlər və edə də bilməyəcəklər. Həm biz güclü nəzarət qurmuşuq, həm açığı, hiss edirik ki, "nəyin bahasına olursa-olsun, qutudan filankəs çıxsın" tapşırıqları da mənim bir həmkəndlim icra nümayəndəsi var, o ağılda olanların özfəaliyyətidir. Hələ ki bu cür "ustanovka"nın ciddi instansiyadan verildiyi görünmür, adamlar ümid edir ki, görünməyəcək də.

madıq. Məlum oldu ki, sən demə, Abdolbori Gozal deyilən "Azərsun"un regional nümayəndələrindən biridir. Zakir ona kimisə tapıb. O da hansısa rayon ruhanisindən xahiş edib və s.

***- Pənah bəy, hər halda, siyasi müxalifətin və demokratik düşərgənin bu seçkilərdə yekdil münasibəti kontekstində tutaq ki, siz qalib gəldiniz, mandat da aldınız, ya verildi, ya təsdiqləndi, bunun sizin siyasi reputasiyanız üçün neqativ nəticələrini hesablamısınızmı?***

- Əvvəla, bu seçkilər, məncə, strateji yox, taktiki əhəmiyyətlidir. Bununla bağlı bir məsələyə mətbuatda ilk dəfə ötəri də olsa toxunmaq istəyirəm. Bu barədə sizin qəzetin dünənki sayındakı manşetində də işarələr var. Bəlkə gələcəkdə daha təfərrüatlı danışmaq mümkün olacaq. Lakin "Azadlıq-2015" seçki blokuna daxil olan 7 partiya sədri təsdiq edər ki, seçkilərin rəsmən təyin edilməsindən bir neçə gün əvvəl blokun Sədrlər Şurasında belə informasiya gündəliyə salınıb müzakirə edilmişdi ki, prezident yanında builki seçki ilə bağlı son müzakirə olub, seçkilərlə bağlı çoxları üçün gözlənilməz olan bu gün müşahidə etdiyimiz ən sərt ssenari Eldar Mahmudovun guya MTN analitiklərinin rəyinə əsaslanan çıxışından sonra qəbul edilib. Prezidentin köməkçilərindən və PA məsul əməkdaşlarından birinin seçki taktikası müəyyənləşdirilərkən beynəlxalq amilin, konkret olaraq beynəlxalq dairələrin təzyiqinin zəiflədilməsi və siyasi partiyalarla gedən prosesin də nəzərə alınmasının lazım olduğu təklifi ilə çıxışından sonra Eldar Mahmudov əks mövqeni əsaslandırıb və siyasi partiyalarla dialoq görüşlərində cənab prezident təhqir edilir kimi faktiki olaraq doğru olmayan və siyasi şantaj xarakterli böhtan dolu məlumat səsləndirib. O vaxt E.Mahmudovun belə mövqeyi bizə axıra qədər aydın olmadı. Hətta informasiyanın yanlış olması fikri də irəli sürüldü. Lakin indi məlum olur ki, bu, təsadüfi deyilmiş və cəmiyyətdə gərginliyin saxlanması və destablizə olunması planının tərkib hissəsi imiş. Suala qayıdaraq davam etmək istəyirəm ki, strateji, uzunmüddətli məsələlər bu gün az ehtimalı olsa da gündəmdən çıxmayıb. Hazırlanmasında mənim də iştirak etdiyim demokratiyaya yumşaq keçid situasiyası reallaşa bilər. Son günlər hakim komandadakı təbəddülatları və antiböhran tədbirlərinin müsbət impulslarını görməzlikdən gəlmək olmaz. Əlbəttə, göz gördüyündən qorxar. Həmişə cəmiyyətdə belə ümidlər yaranıb, ancaq proses yarımçıq dayanıb və gözləntilər də məyusluqla əvəzlənib. Lakin əvvəl-axır bu proses nə vaxtsa başlamalıdır. Başlasa, nəticələr neqativ yox, pozitiv olacaq. Hamı üçün.

❑ **"Yeni Müsavat"**



**"MTN rəhbərliyi cəmiyyətdə gərginliyin saxlanmasında və destablizə olunması planında son dərəcə maraqlı idi"**

**"Elə bilirlər ki, mandat da metrodan alınan saxta diplom kimi şeydir, alıb idarə müdiri işləmək olduğu kimi, pulla mandat alıb, deputat da işləmək olar"**

# Sistemsiz siyasətin fəsadları



**Azər RƏŞİDOĞLU**

**2005-ci ildə DİN-in bəzi rəhbər kadrlarına qarşı həyata keçirilən "Qara kəmər" əməliyyatı və 2015-ci ildə gurultulu həbslərlə müşahidə edilən "MTN işi" bir həqiqəti üzə çıxartdı - ölkə klika qanunları ilə idarə edilib. Düzdür, hər iki halda cinayətlər etmiş dəstələr zərərsizləşdirildi. Lakin bütün bunlar onu deməyə əsas verir ki, siyasi institutların zəif inkişaf etdiyi ölkələrdə bir anın içindəcə xaos baş verə bilər. Azərbaycan kimi sistemsiz siyasi kurs həyata keçirilən ölkələrdə proqnoz vermək son dərəcə çətin və ağlasığmazdır. Cəmiyyətin daha artıq sıxılması iqtidarın siyasi kursunda yumşalmaq xəttinin qabara biləcəyini göstərir. İlk baxışdan son dərəcə qətiyyətli görünən hakimiyyətin "sərtlik limiti" artıq tükənmək üzrədir və iqtidar anlamağa başlayır ki, daha aşırı radikal idarəçilik fəsadlar verə bilər.**

Odur ki, hakimiyyət xarici və daxili təzyiqlər fonunda geri çəkilmək zorundadır. Bu baxımdan, ehtimal etmək olar ki, seçkidən sonra siyasi məhbusların bir qismi azad olunacaq.

Lakin heç kəs zəmanət vermir ki, azad olunan məhbusların yerinə yeniləri türmələrə salınmayacaq. Yəni, siyasi məhbus problemini aradan qaldıran amillər mövcud olduqca yeni siyasi məhbus siyahıları da tərtib olunmaqda davam edəcək. Bu baxımdan, yeni siyasi məhbus kimi tanınmış jurnalist və ya siyasətçilərin həbs oluna biləcəyi ehtimalı xeyli dərəcədə böyükdür. Bu dəfə siyahıya məmurlar da əlavə edilə bilərlər.

Gurultulu həbslər ictimai rəydə siyasi elitanın xeyrinə işləyə bilər. Lakin sual yaranır - bu, iqtidara lazımdırmı? Sistemli kurs həyata keçirən hakimiyyət belə metodlara əl atmaz. Lakin sistemsiz siyasi qüvvələrdən ən mənasız addımlar da gözləmək mümkündür.

Bu gün Azərbaycan cəmiyyəti islahatların aparılması və korrupsiyanın, məmur özbaşınalığının aradan qaldırılmasını arzulayır. Ölkədə hələ də korrupsiya tüğyan etməkdədir. Ekspertlər bunu öz qanun və öhdəliklərini yerinə yetirmək üçün hökumətin siyasi iradəsinin olmaması, eyni zamanda ölkədə avtoritar rejimin saxlanması üçün korrupsiyadan mühüm alət kimi istifadə olunması ilə izah edirlər. Odur ki, Azərbaycanda korrupsiyaya qarşı fundamental səviyyədə tədbirlər planı həyata keçirmək lazımdır.

Ərəb ölkələrində əhalinin narazılığının əsasən korrupsiyadan olmasını nəzərə alsaq, Azərbaycandakı proseslərində bu məcraya yönələ biləcəyini ehtimal edə bilərik. Bu baxımdan, "Yaxın Şərdəki hadisələr bizdə də yaşana bilər" deyənlər haqlı görünürlər. Ölkədə korrupsiya o həddə çatıb ki, insanların etirazı qısa bir zamanda geniş vüsət ala bilər.

"Azərbaycanda Ukrayna prosesləri təkrarlana bilər" deyənlər bu amilə söykənirlər. Bir sözlə, ölkənin siyasi rəhbərliyi iki seçim qarşısında durur: ya sosial dayağı kimi bəzi rüşvətxor məmur kütləsindən istifadə etməli, ya da onlardan xilas olaraq, xalqın etirazına səbəb olan məmurları istefaya göndərməli, islahatlara başlamalıdır.

Əlbəttə, bu islahatlar və əllərində böyük maliyyə vasitələri olan məmurların maraqlarının zərbə alması, bu sosial təbəqənin siyasi hakimiyyətə qarşı çıxması ilə sonuclana bilər.

İstənilən halda siyasi hakimiyyət belə bir riskə getməli və əhalinin yumşaq desək, nifrət elədiyi məmurlardan azad olmalıdır, əks halda isə ölkədə sosial partlayışlar baş verə bilər ki, artıq bu qarşısıalınmaz fəsadlar törədə bilər. Görünür bunu hakimiyyətdə də dərk edirlər. Son həbslər də bunu deməyə əsas verir.

Bu gün Azərbaycanda korrupsiya idarəetmə formasına çevrilib, odur ki, antikorrupsiya cəhdlərinin real nəticələrinə ümid bəsləmək sadəlövhlük olardı. Ekspertlərin hesabatlarında göstərilir ki, Azərbaycanda korrupsiya yalnız məmurların rüşvətxorluğu ilə məhdudlaşmır.

Ölkənin iqtisadi resursları üzərində korrupsiya hakimdir və bu amil iqtisadi islahatları mümkünsüz edir. Baxmayaraq ki, ölkədə antikorrupsiya ilə bağlı qanunlar mövcuddur, siyasi iradəyə olmadığından bu qanunlar adi kağız parçasından başqa bir şey deyil.

Hakimiyyət tənqidçi medianı susdurmaq istiqamətində sərt addımlar atmaqda davam edir. Mətbuatı tam sıradan çıxarmaq onsuz da mümkün olmayacaq. Əgər ağlasığmaz sərtlik davam edərsə, bu siyasət bumeranq effektinə çevrilə bilər. Sistemsiz siyasi fəaliyyət gec-tez fiasko ilə üzləşir. Hakimiyyət yeni məmur həbsləri üzərində planlar qurmaqla yanaşı, təcili islahatlara başlamalıdır. Əks təqdirdə, situasiya nəzarətdən çıxa bilər...

YENİ MÜSAVAT
N 241 (6269) 30 oktyabr 2015



# Həbs dalğası icra başçılarına da çatacaqmı?

## Hüquqşünas "indiki hakimiyyət dövründə yalnız "yarpağı saralanlar" məsuliyyətə cəlb ediləcəklər" deyir

**Son günlər ölkədə "MTN işi", eləcə də sahibkarların hüquqlarının qorunması kontekstində bir sıra yüksək rütbəli məmurlar işdən çıxarılıb, həbsə salınıb. Hazırda da yüksək çinli məmurların cəzalandırılması prosesi davam edir.**

Lakin diqqət etsək, vətəndaşlarda ən çox narazılıq yaradan dövlət icra strukturlarından biri məhz yerli icra hakimiyyətləridir. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sabiq sədri Rafiq Əliyevin Nəsimi Rayon İcra Hakimiyyətinin (RİH) başçısı Asif Əsgərovla bağlı verdiyi açıqlama bu mövzunu yenidən gündəmə gətirib. R.Əliyev deyib ki, Asif Əsgərov ondan 300 min manat məbləğində rüşvət istəyib.

Bəs başlanan həbs dalğası Azərbaycanda "kiçik padşahlar" kimi də tanınan icra başçılarına çata bilərmi?

**Deputat Fazil Mustafaya** görə, əslində əhali və xüsusilə də sahibkarlar incidilirsə, bu barədə birbaşa ölkə başçısına məlumat verməlidir: "Lakin çox adam qorxur. Deyirlər ki, birdən hansısa qeyri-qanuni işimi üzə çıxarıb incidərlər. İnsanlar çalışmalıdırlar ki, birincisi özlərinin qeyri-qanuni işləri olmasın. Ölkə başçısı da bu istiqamətdə öz iradəsini ortaya qoyub. Buna görə də ilk olaraq elə onun özünə kömək etmək lazımdır ki, əlində faktlar olsun. Hansı rayonun icra başçısı sahibkara divan tutursa, bu barədə ölkə başçısının məlumatı olmalıdır. Əgər insanların öz təşəbbüskarlığı olmasa, kimsə onun hüquqlarını gedib müdafiə etməyəcək. Hər halda, ölkədə yaxşı icra başçıları da var. Ancaq eyni zamanda prezidentin etimadını doğrultmayanları da yox deyil. Cəmiyyət bunu daha dəqiq qiymətləndirir. Balans yaxşıların xeyrinə dəyişsə, ölkənin tərəqqisi üçün bu, faydalı olar".

**Hüquqşünas Müzəffər Baxışov qanun qarşısında hər kəsin, o cümlədən icra başçılarının cavabdeh olduqlarını xatırlatdı:** "Hər bir icra başçısını dövlət əmlakını mənimsəmə, insanların hüquqlarını pozmaya görə cinayət məsuliyyətinə cəlb etmək mümkündür. Dəfələrlə də Hesablama Palatası tərəfindən icra hakimiyyətlərində həyata keçirilən yoxlamaların nəticələri də təsdiq edib ki, rayon icra başçıları oğurluqla məşğuldurlar. Eyni zamanda icra başçıları həmin rəhbər olduqları ərazidə fəaliyyət göstərən fiziki və hüquqi şəxslərdən rüşvət alırlar. Qeyd etdiyimiz bu şəxslər həmçinin də vəzifə səlahiyyətlərini aşırlar. Belə olduğu halda həmin icra başçılarını işdən çıxarmaq lazımdır. Ancaq nə qədər ki, bu hakimiyyət var, icra başçılarından yalnız "yarpağı saralanlar" məsuliyyətə cəlb ediləcəklər. Amma belə olmamalıdır. Azərbaycanda hüquqi dövlət qurulmalıdır. Hər bir kəs vəzifəsindən asılı olmayaraq, öz hərəkətlərinə görə qanun qarşısında cavab verməlidir. Cinayət törədən dərhal cəzalandırılmalıdır ki, digər şəxslərə də bu bir ibrət olsun".

❑ Əli RAİS

# Rabitə Nazirliyinin dünya telefon xəttinə çıxışı olan məmuru həbs olundu

# MTN-in "rabitə çetesi" beynəlxalq danışıqları da dinləyib - skandal

## RN-in Beynəlxalq Əlaqələr və Hesablaşma Mərkəzinin direktoru Cəlil Cəfərovun həbsi ilə bağlı sensasion iddialar; Qərbyönümlü məmur kimi tanıdılan Eldar Mahmudov üçün daha çox "şimaldan gələn zənglər" maraqlı ola bilərdi...

**Eldar Mahmudov nazir vəzifəsindən çıxarıldıqdan sonra Milli Təhlükəsizlik Nazirliyindəki (MTN) sensasion həbslərin əsasən gizli dinləmələrlə bağlı olduğu barədə "Yeni Müsavat"ın yazdıqları bir daha təsdiqlənib. Xüsusi Dövlət Mühafizə Xidmətinin birbaşa nəzarətində aparılan qanunsuz dinləmələrlə bağlı istintaqda MTN-in Monitorinq Mərkəzinin sabiq rəisi general-mayor Teymur Quliyevin ifadələri Rabitə və Yüksək Texnologiyalar Nazirliyindəki (bundan sonra qısa olaraq Rabitə Nazirliyi yazacağıq-red) həbslərlə birbaşa bağlı olduğu artıq heç bir şübhə doğurmur.**

Oktyabrın 28-də Rabitə Nazirliyinin daha bir yüksək vəzifəli şəxsi - Beynəlxalq Əlaqələr və Hesablaşma Mərkəzinin (BƏHM) direktoru Cəlil Cəfərov həbs edilib. Xatırladaq ki, bir neçə gün əvvəl Bakı Telefon Rabitəsi İstehsalat Birliyinin rəhbəri Beytulla Hüseynov və Rabitə Nazirliyinin Aparat rəhbəri Vidadi Zeynalov da saxlanılıb.

***

### Həbs edilən Cəfər Cəfərov kimdir?

C.Cəfərovun rəhbərlik etdiyi BƏHM cəmi bir neçə ay əvvəl hüquqi forması dəyişdirilərək "Azerbaijan International Telecom (AzInTelecom)" Məhdud Məsuliyyətli Cəmiyyətə çevrilib.

BƏHM "Aztelekom İB"in tərkibində 1994-cü ildə yaradılıb. Azərbaycanda rabitə sistemində beynəlxalq hesablaşmalar sahəsində ilk müstəqil qurum olan BƏHM 1995-ci ildə "Aztelekom İB"in tərkibindən çıxarılıb və birbaşa Rabitə Nazirliyinə tabe edilib.

C.Cəfərov 1972-ci ildə anadan olub. Texniki Universitetin radiotexnika fakültəsini bitirən C.Cəfərov Elmlər Akademiyasının Fotoelektronika (indiki Fizika İnstitutu) İnstitutunun aspiranturasının məzunudur. 1995-1997-ci illərdə Rabitə Nazirliyinin Beynəlxalq Əlaqələr və Hesablaşma Mərkəzində mühəndis kimi əmək fəaliyyətinə başlayıb. Sonradan Rabitə Nazirliyinin Telekommunikasiya İdarəsinin baş mütəxəssisi, investisiya şöbəsində şöbə rəisinin müavini vəzifəsində çalışıb. Daha sonra BƏHM-in direktoru vəzifəsinə təyin olunub. "Rabitə ustası" fəxri adına layiq görülən C.Cəfərov "Tərəqqi" medalı ilə də təltif olunub. Məlumata görə, iki övladı var.




### Həbsin müəmması

Rabitə Nazirliyindəki həbslərlə bağlı heç bir rəsmi açıqlama verilmir və belə görünür ki, heç yaxın zamanda verilməyəcək də. Çünki qanunsuz dinləmələrlə bağlı istintaq birbaşa Xüsusi Dövlət Mühafizə Xidmətinin nəzarəti altındadır. Bu iş tam olaraq Xüsusi Dövlət Mühafizə Xidməti rəisinin birinci müavini Bəylər Əyyubovun icraatındadır və ifadələrin alınmasında son dərəcə məxfilik qorunur.

Məhz C.Cəfərovun həbsi MTN-dəki gizli dinləmələrlə bağlı xəbərlərə yeni yön verib və sensasion iddialara səbəb olub. Çünki həbs edilən C.Cəfərovun rəhbərlik etdiyi BƏHM Azərbaycanla dünya ölkələri arasında beynəlxalq telefon, teleqraf, teleks, kanal istifadəsi və poçt rabitəsinə məsul olub. BƏHM-in funksiyasına həmçinin beynəlxalq operatorlarla müqavilələrin bağlanması və müqavilə üzrə dövlətlərarası qarşılıqlı hesablaşmaların aparılması da daxildir.

Bu həbs o anlama gəlir ki, MTN-in "rabitə çetesi" təkcə Azərbaycanın siyasi hakimiyyət mənsublarının ölkədaxili deyil, xariclə də telefon danışıqlarını, teleqram və fakslarını nəzarətdə saxlayıb. Güman ki, dövlət aparatına daxil olan şəxslərin xarici dövlətlərin vəzifəliləri və diplomatları ilə telekommunikasiya təmasları da Rabitə Nazirliyindəki adamları vasitəsilə kontrol edilib.

Bu arzuedilməz praktikadan Rusiya kəşfiyyatı daha çox istifadə edir və son illər bu cür beynəlxalq telefon danışıqlarının yayılması beynəlxalq skandal yaradıb. Məsələn, ötən il ABŞ dövlət katibinin müavini Viktoria Nuland və Amerikanın Ukraynadakı səfiri Geoffrey Pyattın Ukrayna müxalifətini müzakirə edən telefon danışığı internetdə yerləşdirmişdi. Həmin telefon danışığı zamanı ABŞ dövlət katibinin müavini Avropa İttifaqı barədə ədəbsiz ifadəyə yol vermişdi. ABŞ rəsmiləri telefon söhbətinə gizli müdaxilə edilməsini Rusiya kəşfiyyatının "çirkin oyunu" adlandırmışdı.

### MTN-in "telefonçu qrupu"

MTN-in "telefonçu qrupu"nun da Azərbaycanın dövlət adamlarının xaricilərlə danışmasına niyə bu qədər həvəsli olmasının səbəbləri barədə ilkin mülahizələri daha da genişləndirmək olar. Məlumdur ki, Azərbaycan hakimiyyətinin Qərblə soyuq münasibətləri olsa da, Kremllə hiss olunacaq dərəcədə yaxınlaşıb. Eldar Mahmudov hələ ki bilinməyən səbəblərdən nədənsə hakimiyyətdəki "qərbpərəstlər" siyahısına daxil edilirdi. Ona görə də MTN-in daha çox "şimaldan gələn zənglərin" kontrol edildiyi versiyası haqda danışmaq mümkündür. Əgər bu məlumatlar rəsmən təsdiqlənərsə, "MTN işi" həm də ciddi beynəlxalq qalmaqala çevrilə bilər. Məhz həbs edilənlərin ifadəsi Eldar Mahmudovun sonrakı taleyini həll edəcək.

Yeri gəlmişkən, istiqlal.az saytı Eldar Mahmudovun ailə üzvlərinin Azərbaycanı tərk etdiyi xəbərini yayıb. Məlumatda bildirilir ki, sabiq nazirin ailə üzvləri, həmçinin qayınatası E.Mahmudov işdən çıxarılmamışdan bir neçə gün əvvəl Azərbaycandan çıxıb. Bəzi mənbələr isə Mahmudovların bir neçə il əvvəldən Londonda yerləşdiyini iddia edir...

❑ "Yeni Müsavat"

# Həbs edilən aparat rəhbəri haqda yeni bilgilər

## Məlumatlara görə, Vidadi Zeynalovun Neftçala və Naftalan rayonlarında istirahət mərkəzləri var

**Bir neçə gün əvvəl istintaqa cəlb edilən Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Aparat rəhbəri Vidadi Zeynalov barəsində redaksiyamiza ilginc məlumatlar daxil olub. Mənbənin iddiasına görə, Bakı rayonları ilə yanaşı yerlərdə olan telekommunikasiya qovşaqlarının rəisləri Vidadi Zeynalovun "xeyir-duası" ilə vəzifəyə təyin olunublar.**



Məsələn, Quba, Şəmkir, Qax, Gəncə, Şəmkir, Göygöl, İmişli, Beyləqan, Sabirabad, Hacıqabul, Kürdəmir, Cəlilabad, Masallı, Lənkəran rayonlarının telekommunikasiya qovşaqlarının rəisləri vəzifəyə təyin olunandan Vidadi Zeynalovla hesablaşıblar.

O, istədiyi adamını hər hansısa nazirliyə də vəzifəyə təyin etdirmək iqtidarında olub. Geniş biznes şəbəkəsinə malik olan Vidadi Zeynalovun bizdə olan bilgiyə görə, hazırda Neftçala və Naftalan rayonlarında istirahət mərkəzləri var. Aparat rəhbəri işləyən bu şəxs oliqarx hesab olunur.

Qeyd edək ki, V.Zeynalovun həbsi Bakı Telefon Rabitəsi İstehsalat Birliyinin (BTRİB) işdən çıxarılan və həbs olunan rəhbəri Beytulla Hüseynovla əlaqəlidir. B.Hüseynov sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun yaxın qohumudur, qanunsuz dinləmələrdə adı keçdiyi üçün işdən qovulub. B.Hüseynovun həbsi "MTN işi" üzrə istintaq aparan Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində dindiriləndən sonra gerçəkləşib. Ona da iş üzrə təqsirləndirlən digər şəxslərə - MTN-çilərə elan olunan maddələr üzrə ittiham elan olunub. B.Hüseynov həm də Cinayət Məcəlləsinin 179.3.2 - mənimsəmə və ya israf etmə, külli miqdarda törədildikdə - maddəsi ilə istintaqa cəlb olunub.

Vidadi Zeynalov nazirlikdən öncə, 2000-2004-cü illərdə İqtisad Universitetinin inzibati - təsərrüfat işləri üzrə prorektoru vəzifəsində çalışıb. Daha sonra iş yerini Yüksək Texnologiyalar Nazirliyinə dəyişib.

❑ E.HÜSEYNOV



# Əli Abbasovun işdən çıxarılması xəbəri təsdiqlənmədi

**"Cənab nazirin işdən azad olunması haqda yayılan xəbərlər yalandır. Hazırda Əli Abbasov iş başındadır". Bu sözləri axar.az -a Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin mətbuat xidmətinin rəhbəri Müşfiq Əmirov deyib. Nazirliyin sözçüsü təkzib mətninin mediaya göndərildiyini bildirib.**

Qeyd edək ki, mediada nazir Əli Abbasovun işdən çıxarıldığı barədə xəbər yayılıb.

YENİ MÜSAVAT
N 241 (6269) 30 oktyabr 2015

# Seçicilərimə inanıram!

## Adil Əliyev: "Problemlərinizin həlli seçkilərdə fəal olmaqdan, sıx birlikdən keçir"

S.R.



**Nərimanov rayonu 20 saylı ikinci seçki dairəsindən millət vəkilliyinə müstəqil namizəd olan Adil Əliyev seçki təbliğatı dövründə seçiciləri ilə izdihamlı görüşlər keçirib. Həmin görüşlərə millət vəkilliyinə namizədin yüzlərlə tərəfdarı qatılıb. Bundan başqa, Adil Əliyev onun namizədliyini dəstəkləyən müxtəlif cəmiyyət və təşkilatların çoxsaylı nümayəndələri ilə mütəmadi görüşlər keçirib.**

Millət vəkilliyinə namizəd hər köşəsini, hər küçəsini yaxşı tanıdığı dairəsini qarış-qarış gəzərək məhəllə sakinləri qarşısında çıxışlar edib, sakinlərin fikir və təkliflərini dinləyib, onların suallarına cavab verib. Ən vacibi odur ki, seçki olmadan da Adil Əliyevin qərargahı seçicilərinin üzünə daima açıqdır. "Millət vəkili olaraq seçicilərimizin qarşısında verdiyimiz vədləri yerinə yetirmək bizim ən ümdə borcumuzdur. Biz məhz bu amili fəaliyyətimizdə əsas götürmüşük" - deyən Adil Əliyev hər görüşdə seçicilərinin hər hansı probleminin onun da problemi olduğunu vurğulayıb. Məhz buna görədir ki, sakinlər iki dəfə (2005 və 2010-cu illər) Adil Əliyevə etibar edib onu millət vəkili seçiblər. Bu inam əsasında Adil Əliyev rəqibləri üzərində qətiyyətli qələbələr qazanıb və növbəti inamlı qələbəsinə hazırlaşır.

**Adil Əliyev seçiciləri qarşısında çıxışlarında Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən inkişaf strategiyasının bu gün ölkə prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdiyini ifadə edib:** "Bu isə özlüyündə qətiyyət amilidir. Əlbəttə ki, bu siyasət Azərbaycanın Cənubi Qafqaz bölgəsində ən güclü dövlətə, eləcə də dünyada öz sözünü deyə bilən ölkəyə çevrilməsinə zəmin yaradıb. Bu gün ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi siyasətin fonunda ölkəmiz bir çox uğurlara imza atıb".

**Adil Əliyev ölkəmizin üzləşdiyi bəzi problemləri də dilə gətirir və bunların həllində dövlət başçısına dəstək verilməsinin vacibliyini bildirir:** "İqtisadiyyatda xeyli uğurumuz var, sosial sahəyə diqqət ildən-ilə artırılır. Ancaq prezidentimizin də qeyd etdiyi kimi neqativ hallar da var ki, onlar ümumi inkişafımıza mane olur. Prezidentimiz deyir ki, sahibkarlar qarşısında əsassız tələblər qoyulmamalıdır, onlardan rüşvət alınmamalıdır. Biz neftin qiymətlərinə ümid edə bilmərik. Yeni açılan iş yerlərini qorumaq və yenilərini açmaq lazımdır ki, həm məşğulluq, həm də insanların rifah halı artsın. "Əgər rüşvətxorluq, korrupsiya, yoxlamalar, lisenziyalar, haqqoyma olmasaydı, görün, büdcəmiz nə qədər arta bilərdi?! Buna nə qədər dözmək olar?! Artıq qurtardı, yeni hövsələ tükənib. Hər kəs nəticə çıxarsın. Nəticə çıxarmasa, cəzalandırılacaq" - deyən prezidentimizin bu sözlərindən hamı nəticə çıxarmalıdır. Nəticə çıxarmayanların acı taleyini bugünlərdə diqqətlə izləyirik".

**Adil Əliyev aparılan siyasətin Azərbaycan dövlətçiliyinin möhkəmlənməsinə, inkişafına, xalqımızın rifahına xidmət etdiyini deyərək, qarşıda yeni planların, yeni ideyaların olduğunu da qeyd edib. Adil Əliyevin seçiciləri qarşısında çıxışlarının leytmotivini bu sözlər təşkil edir:** "Mən hər zaman sizlərin problemlərini dinləyir, həllinə çalışıram. Bundan sonra da mənə etimad göstərsəniz, bu istiqamətdə fəaliyyətimi davam etdirəcəyəm. Elə namizədlər var ki, sizə fantastik vədlər verirlər, amma mən vəd vermirəm, deputat səlahiyyətim çərçivəsində sizlər üçün əlimdən gələni etməyə çalışıram və yenidən seçiləcəyim təqdirdə sizlərin yardımçısı olacağam".

**"Problemlərinizin həlli seçkilərdə fəal olmaqdan, sıx birlikdən keçir" - deyən Adil Əliyev sonda seçicilərinə bu ifadə ilə müraciət edir "Hər birinizi doğru seçim etməyə çağırıram". Adil Əliyev və tərəfdarları seçkiyə barmaqlarını bükərək 3 rəqəmini göstərərək başladılar və bu işarə ilə də təbliğatlarını uğurla yekunlaşdırdılar:** "Üçüncü sırada *(seçici siyahısında Adil Əliyevin ismi üçüncüdür),* üçüncü sınaq, üçüncü qələbə!" Necə deyərlər, atalar üçdən deyib! Sonda seçkilərin ədalətli və şəffaf keçirilməsini şübhə altına almaq istəyənlərə müraciət edirəm: Bəzi müxalifət partiyaları seçkilərə əvvəlcədən qatılmadı, digərləri isə son anda seçkilərdə iştirak etməkdən imtina etdi. Halbuki seçki təbliğatı dövründə kimsə onları sıxışdırmamışdı, qeydiyyat problemləri də yox idi. Müxalif qüvvələrə hər cür şərait yaradılıb ki, seçkilərdə güclərini sınasınlar. Sadəcə, onlar bu imkandan istifadə etmək istəmədilər. Özünə güvənən və inanan partiya və siyasətçi seçkidə iştirak edər və hansı gücə malik olduğunu cəmiyyətə göstərərdi. Deməli, seçkidən imtina edənlər öz güclərinə inanmırlar. Dövlətimiz demokratik seçki keçirməyə də, legitimliyi heç bir şübhə doğurmayan parlament formalaşdırmağa da qadirdir! Buna xalqımız qərar verir, seçkiləri müşahidə etməkdən imtina edən və bu yolla erməni lobbisinin havadarlarına çevrilən beynəlxalq təşkilatlar yox!

***Adil Əliyevin Seçki Qərargahı***











YENİ MÜSAVAT
N 241 (6269) 30 oktyabr 2015

# Müsavatın seçkidən çəkilmək qərarı aranı qatdı

## Bəzi tanınmış namizədlər geri çəkilməyəcəklərini bəyan etdilər; Müsavat rəhbərliyi ayın 31-nə qədər vaxt qoydu; MSK: "Müsavatın qərarının hüququ qüvvəsi yoxdur"

**Təbliğat kampaniyasının sonuna yaxın Müsavat Partiyasının seçkilərdə iştirakdan imtina etməsi onun namizədlərini çətin duruma salıb. Bu günə qədər təbliğat-təşviqat kampaniyası aparararaq, küçəbəküçə, kəndbəkənd gəzərək insanlarla görüşüb proqramlarını açıqlayan namizədlərin bəziləri Müsavatın qərarından təəccübləniblər. Onlar bildirirlər ki, əgər belə bir niyyət var idisə, niyə öncədən deyilmirdi.**
**Namizədlər qeyd ediblər ki, seçki kampaniyasına kifayət qədər vəsait, vaxt sərf edib, enerji xərcləyiblər və seçicilərə müxtəlif vədlər, söz veriblər.**




Vətəndaşlar da onlara inanıb seçkilərdə iştirak edəcəklər. Belə olan halda seçkiyə bir neçə gün qalmış prosesdən kənarlaşmaq seçiciyə qarşı hörmətsizlik, rəqiblər qarşısında geri çəkilmək kimi başa düşülə bilər.

Onu da qeyd edək ki, Müsavat Partiyasının irəli sürdüyü 80-ə yaxın namizəddən 25 nəfərini seçki komissiyaları qeydə alıb. Həmin namizədlərin 24-ü Müsavatın üzvüdür, bir nəfəri Müsavat Partiyasının üzvü deyil. Bu şəxs 123 saylı Kəlbəcər seçki dairəsindən namizəd, Azərbaycan Milliyyətçi Demokrat Partiyasının lideri, keçmiş daxili işlər naziri İsgəndər Həmidovdur.

### "Bəs seçicilərə nə deyək?"

**İsgəndər Həmidovun Müsavat Partiyasının qərarından sonra namizədliyini geri götürüb-götürməyəcəyini onun özündən soruşduq. İ.Həmidov bildirdi ki, Gəncə zonasında seçicilərlə görüşdə olarkən Müsavatın məlum qərarı verdiyini eşidib və oktyabrın 29-da səhər Bakıya gəlib və Müsavat rəhbərliyi ilə görüşüb:** "Müsavatın qərarına böyük hörmətlə yanaşıram. Amma onu da deyim ki, təşviqat kampaniyası başlayandan mən 30 rayonda, 50-dən yuxarı kənddə olmuşam, ölkənin dörd bir yanına səpələnmiş kəlbəcərli seçicilərimlə görüşlər keçirmişəm, seçicilər mənə böyük dəstək veriblər, onların qarşısında çıxışlarımda, mətbuata da müsahibələrimdə bəyan etmişəm ki, seçicilərin ümidlərini puç etməyəcəm və seçkidə sona qədər iştirak edəcəyəm. Şayiələr yayırdılar ki, guya mən pul alıb geri çəkiləcəm, seçkidən sonra kimisə təbrik edəcəm. Mən də bəyan etmişəm ki, bunlar hamısı şayiədir və mən sonadək seçkidə iştirak edəcəyəm. Bir məsələ də var ki, artıq bülletenlər çap edilib və adımız bülletendədir. Bütün bunların hamısını nəzərə alıb Müsavat rəhbərliyi ilə müzakirə aparıram. Yekun qərara gələn kimi məlumat verəcəyəm".

**Müsavatın 79 saylı İmişli seçki dairəsindən namizədi İltizam Əkbərli isə seçkidən çəkilməyəcəyini bəyan edib. APA-ya açıqlamasında İ.Əkbərli deyib ki, Müsavatın qərarından asılı olmayaraq seçkidə iştirakını davam etdirir:** "Müsavat Divanının qərarına hörmətlə yanaşıram. Lakin seçicilərimə, mənə imza verənlərə də hörmətlə yanaşıram. Birmənalı şəkildə seçkidə iştirakdan imtina etməyəcəyəm".

**Müsavatın 115 saylı Şəki kənd ikinci seçki dairəsindən namizədi İkram İsrafil isə qəti bəyanat verməsə də partiyanın qərarından sonra da kəndlərdə seçiciləri ilə görüşünü davam etdirir. İ.İsrafil facebook səhifəsində bir video paylaşıb. Videoda İ.İsrafilin kəndlərin birində seçicilərlə görüşü və sakinlərdən birinin sosial vəziyyətdən, acınacaqlı həyatlarından danışdığı əksini tapıb. İ.İsrafil videonun yanında yazıb ki, sadə seçicilərə seçkiyə üçün gün qalmış prosesdən nə üçün çəkilməyi izah etmək asan deyil:** "Gedin ATƏT-i, efir vaxtını və s. dərdlərinizi bu vətəndaşa başa salın! Gedin deyin görək başa düşəcək?!! Bu adamın dərdi hansı dərdinizdən üstündür?! Bu adamın, bunun kimi insanların nəyinə lazımdır Avropanın tanıması, MSK-ın efir verməsi. Bu insana normal şərait, ailə saxlamaq, balasının dərdinə çarə lazımdı, dərdini dinləyəcək biri lazımdı! Qarşısına çıxıb seçkidən imtina ilə bağlı qərardakı bəndləri sadalasanız, üzünüzə deməsə də üreyində "rədd olun, sizdən də bir şey olmadı!" deyəcək. Acı da olsa, əmin olun ki, deyəcək!! Və nəzərə alın ki, regionlarda belə insanlar on minlərlədi! Olan son ümidi də qırmaq olmaz!"

**Partiyanın Divan üzvü Razim Əmiraslanlı da namizədliyini hələ ki geri çəkməyib. R.Əmiraslanlı partiyanın Divan iclasının seçki ilə bağlı qərarına hörmətlə yanaşdığını bildirdi:** "120 saylı Cəbrayıl-Qubadlı seçki dairəsindən namizədliyimi irəli sürmüşəm. İstər seçkidən əvvəl, istərsə də indiki halda mübarizənin davam etdirilməsinin tərəfdarı olmuşam. Buna baxmayaraq, Divanın qərarına hörmətlə yanaşıram. Namizədliyimi irəli sürərkən Cəbrayılın tanınan, görkəmli ictimai xadimləri, müharibə veteranları, Qarabağ qaziləri, gənc fəallar və digər yaxınlarımla məsləhətləşdikdən sonra bu qərarı verdim. Əgər namizədliyimi geri çəkərəmsə, o zaman öncə həmin şəxslərlə məsləhətləşməliyəm. Onların qərarı mənim atacağım addımlara stimul verəcək".

Müsavatın 55 saylı Xaçmaz şəhər seçki dairəsindən deputatlığa namizədi Söhrab Əmirov isə facebook sosial şəbəkəsindəki səhifəsində namizədliyini geri götürməyəcəyini, seçki marafonunda iştirakını davam etdirəcəyini bildirib.

### Partiya oktyabrın 31-dək gözləyəcək

**Müsavatın Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı isə bildirdi ki, namizədliyini geri götürməyənlərin oktyabrın 31-nə qədər vaxtı var:** "Ona görə də indi onların hansı sözü demələri, hansı izahat vermələri mənim üçün o qədər maraqlı deyil. Güman edirəm ki, oktyabrın 31-nə qədər həmin şəxslər namizədliklərini geri götürməklə bağlı ərizələrini təqdim edəcəklər. Ərizələrini təqdim etməyəcəklərsə, o halda partiyada onların məsələsinə baxıla bilər. İndiki halda vaxt var. Qərar qəbul olunub, hər kəsdən qərara hörmətlə yanaşmaq, nizamnamə çərçivəsində hərəkət etmək tələb olunub və belə də olacaq".

**Müsavat başqanı Arif Hacılı isə bildirdi ki, Müsavatın namizədlərinin çoxu seçkidən çəkilməkləri ilə bağlı müraciət ediblər:** "Düşünürəm ki, hər bir namizəd Müsavat Partiyasının qərarına uyğun olaraq seçki prosesində iştirakını dayandıracaq".

**"İltizam Əkbərli seçkidə sonadək iştirak edəcəyini açıqlayıb. İkram İsrafil təbliğat görüşlərini davam etdirir. Onlarla danışıqlar aparıla bilərmi? Namizədliyini geri götürməyənlərin partiyadan xaric edilmələri məsələsi qoyula bilərmi" suallarına Müsavat başqanı belə cavab verdi:** "Bəzi namizədlər seçki prosesindən çıxmaqla bağlı yalnız seçiciləri qarşısında götürdükləri öhdəliklərə görə problemlərlə üzləşir. Ancaq hesab edirəm ki, bu məsələ müsbət həll olunacaq və Müsavat Partiyasının bütün namizədləri seçki dairələrində öz namizədliklərini geri götürəcəklər. Müsavat Partiyası bütün qərarları kollegial olaraq qəbul eləyən bir təşkilatdır. Düşünmürəm ki, kimlərinsə xaric edilməsi problemi yaranacaq və biz bu məsələni müzakirə etmək zorunda qalacağıq. Əgər belə bir problem həqiqətən mövcud olacaqsa, biz bu məsələni müzakirə edəcəyik".

**31 saylı Suraxanı seçki dairəsindən Müsavatın namizədi Mustafa Hacılı isə namizədliyini geri götürdüyünü açıqlayıb:** "Namizədliyimin qeydə alınması üçün imza verən və imza toplayan, plakatlarımı hazırlayan və yapışdıran, mənim təbliğatımı aparan, rəy sorğularında səs verən bütün insanlara təşəkkürümü bildirirəm. Seçkiyə mübarizə üçün qoşulmuşduq və bu mübarizəmiz davam edir. Seçki günü də cəmiyyətlə birgə olacağıq, saxtakarlıq faktları toplayacaq, yayacaq, ifşa edəcəyik. Sonunda biz qalib gələcəyik!"

Müsavat üzvü, deputatlığa 21 saylı Nəsimi SD-dən namizəd Tural Abbaslı isə deyib ki, Müsavatın bu addımı yanlışdır.

**Müsavat Partiyası Mərkəzi Nəzarət Təftiş Komissiyasının sədri Sevinc Hüseynova isə cebhe.info-ya deyib ki, Müsavat Divanının qərarında birmənalı şəkildə göstərilir ki, partiya seçkilərdən çəkilir:** "Seçkilərdə iştirak edən adam Müsavat Partiyası adından təmsil oluna bilməz. Onlara təzyiqlər də olmayacaq. Çünki həmin 25 nəfər ləyaqətli namizədlərdir və inanıram ki, Divanın qərarına əməl edəcəklər. Biz üzvlərimizə çox inanırıq və əvvəlcədən də bəlli idi ki, seçki mühiti olmasa Müsavat Partiyası seçkilərdən geri çəkiləcək".

**Sevinc Hüseynova isə bildirib ki, hələ seçkilərdə iştirak etmək istəyən namizəd yoxdur:** "Bu seçkiyə qatılmaq o deməkdir ki, mən Divanın qərarındakı bəndləri qəbul etmirəm və hakimiyyət düzgün seçki keçirir. Mən inanmıram ki, Müsavat Partiyasında belə adam olsun".

**YAP-ın şöbə müdiri Aydın Mirzəzadə deyib ki, mümkündür ki, Müsavatın bu addımı xaricdən hansısa mərkəzlərin tapşırığı ilə bağlıdır:** "Siyasi partiyanın fəaliyyəti seçkidə iştirak etməkdir. Seçkidə iştirak etməyən, hakimiyyətə alternativ olmayan bir partiya artıq partiya deyil, dərnəkdir".

### MSK: "Müsavatın qərarının hüququ qüvvəsi yoxdur"

Mərkəzi Seçki Komissiyasının (MSK) iclasında Milli Məclisə seçkilərlə əlaqədar daxil olmuş müraciətlərə baxılıb. APA-nın məlumatına görə, MSK sədrinin müavini Natiq Məmmədov deyib ki, Müsavat Partiyasının səlahiyyətli nümayəndəsi Gülağa Aslanlı MSK-ya müraciət edərək partiyanın seçkidə iştirakdan imtina etdiyini bildirib.

"Seçkilərdə iştirakdan imtina hüququ səsverməyə 10 gün qalmışa qədər mövcuddur. Çünki həmin müddətdən sonra namizədlərin adları bülletenlərə salınır. Müsavat Partiyası qanunvericiliyin imkan verdiyi müddətdə yox, bu müddətdən sonra seçkidə iştirakını dayandırdığını bəyan edib".

**N.Məmmədov qeyd edib ki, Müsavatın seçkilərin 4 ay təxirə salınması barədə təklifi qanunvericiliyə uyğun deyil:** "Seçkilərdə iştirakdan imtina hüququ səsverməyə 10 gün qalmışa qədər mövcuddur. Çünki həmin müddətdən sonra namizədlərin adları bülletenlərə salınır. Müsavat Partiyası qanunvericiliyin imkan verdiyi müddətdə yox, bu müddətdən sonra seçkidə iştirakını dayandırdığını bəyan edib. Digər tərəfdən, partiya namizədlərini özü geri çağırmalıdır. Ona görə də MSK-dan DSK-larda Müsavat Partiyasının namizədlərinin namizədliklərini geri götürməkdə yardım istəməsini xahiş etməsi anlaşılan deyil".

**N.Məmmədov qeyd edib ki, qanunvericiliklə nəzərdə tutulmuş müddətdə partiya seçkidə iştirakını dayandırsaydı, bunu başa düşmək olardı:** "MSK mövqeyini bildirməlidir ki, Müsavat Partiyasının bu addımının hüquqi əsası yoxdur, Müsavat Partiyasının namizədləri seçkilərdə iştirak edirlər. Bununla bağlı MSK-nın yazılı bəyanatı olmalıdır".

Sonra məsələ səsverməyə çıxarılıb və MSK Müsavat Partiyasının müraciətinin qəbul olunmaması, MSK-nın məsələ ilə bağlı mövqeyinin ictimaiyyətə çatdırılması barədə qərar qəbul edilib.

Qeyd edək ki, Müsavat Divanı oktyabrın 28-də seçkidə iştirakı dayandırmaq barədə qərar qəbul edib.

❑ **Etibar SEYİDAĞA**

# Ümid Pənah Hüseyni, AXP və VHP İqbal Ağazadəni dəstəklədi

**Ümid Partiyası 63 saylı Sabirabad seçki dairəsindən Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseynin deputatlığa namizədliyinin dəstəklənməsi barədə qərar qəbul edib. Ümid Partiyası üzvlərini və tərəfdarlarını 63 saylı Sabirabad seçki dairəsindən namizəd Pənah Hüseynə səs verməyə çağırıb. Vətəndaş Həmrəyliyi Partiyası isə 35 saylı Xətai seçki dairəsində Ümid Partiyasının sədri İqbal Ağazadənin deputatlığa namizədliyinin dəstəklənməsi barədə qərara gəlib. VHP üzvlərini və tərəfdarlarını İqbal Ağazadəyə səs verməyə çağırıb. Hər iki xəbər musavat.com-a Ümid Partiyasından verilib. Xatırladaq ki, bir müddət əvvəl VHP-nın Xətai üçüncü seçki dairəsindən irəli sürdüyü namizəd Rəşad Məmmədli də İqbal Ağazadənin xeyrinə namizədliyindən imtina edib.**

Azərbaycan Xalq Partiyası isə Ümid Partiyasının jestini cavabsız buraxmayıb. Belə ki, AXP 35 saylı dairədə İqbal Ağazadənin namizədliyinin dəstəklənməsi barədə qərar qəbul edib. AXP sədri Pənah Hüseynin verdiyi məlumata görə, 28 oktyabrda dairə ərazisində seçicilərlə görüşdə Ümid Partiyasının Sabirabad rayon təşkilatının sədri çıxış edib və rayon təşkilatının seçkidə onu dəstəklədiyini rəsmən bəyan eləyib: "Mən 29 oktyabrda Bakı döndüm və AXP Siyasi Şurasını topladıq. Həm siyasi tərəfdaş olaraq, həm də platformasını və siyasi münasibətlərimizi nəzərə alaraq Ümid Partiyasının sədri İqbal Ağazadəni namizəd olduğu dairədə dəstəkləmək barədə qərar qəbul etdik".

❑ **E.SEYİDAĞA**



# ABŞ Senatındakı dinləmələr hakimiyyəti hərəkətə keçirdi

## Ölkəmizin ABŞ-dakı səfirliyinin müşaviri sərt reaksiya verdi; Fəzail Ağamalı: "Seçkilərə heç bir təsiri olmayacaq"

**Oktyabrın 28-də ABŞ Senatında Azərbaycanda insan hüquqlarının pozulması ilə bağlı dinləmələr keçirilib. Parlament seçkilərinə 4 gün qalmış belə bir dinləmənin keçirilməsi heç şübhəsiz ki, bir çox gizli mətləblərdən xəbər verir. Dinləmələrin keçirilməsi senatorlar Mark Kirk və Kris Kuns, həmçinin bir sıra beynəlxalq hüquq-müdafiə təşkilatlarının təşəbbüsləri ilə olub.**

Senatın tədbirinin əsas müzakirə mövzusu ölkəmizdə vətəndaş cəmiyyətinin sıxışdırılması, son bir ildə siyasi fəalların, jurnalistlərin, din xadimlərinin həbs edilməsi, insan haqlarının pozulması olub. Dinləmələrdə hazırda həbsdə olan Leyla və Arif Yunusların, eləcə də Xədicə İsmayılın və digər siyasi məhbusların azad edilməsi üçün çağırışlar yer alıb. Təsadüfi deyil ki, tədbirə dəvətlilər sırasında Yunusların qızı Dinara Yunus da olub.

Azərbaycan hakimiyyəti qarşısında dinləmələrin yuxarıda qeyd etdiyimiz əsas mövzuları ilə bağlı sərt tələblər qoyulub. Bəzi ekspertlər hesab edirlər ki, mühüm bir seçki ərəfəsində Azərbaycanın belə təzyiqlərlə üzləşməsi Qərbin ölkəmizə qarşı təsir mexanizmlərindən biridir. Dinləmələrin ardından sanksiyalar tətbiq olunacağı ilə bağlı ehtimallar da səsləndirilir.

**Senatın qərarları Azərbaycan hakimiyyət tərəfindən ciddi narazılıqla qarşılanıb. Ölkəmizin ABŞ-dakı səfirliyi dərhal kəskin reaksiya verib. Səfirliyin müşaviri Fəxrəddin İsmayılov dinləmələri keçirən şəxsin ermənilərə xidmət etməsi barədə sərt fikirlər səsləndirib:** "Senatda Ermənistanın işğalçı siyasətinə bəraət qazandırmağa çalışan bir şəxsin Azərbaycanda insan haqları ilə bağlı tədbir keçirib, Azərbaycana qarşı qarayaxma kampaniyasına dəstək verməklə, öz erməni havadarlarına xidmət göstərmiş olduğuna hər hansı şübhə yoxdur. Yəni bu senator üçün Azərbaycan, onun vətəndaşları və ölkəmizdəki insan hüquqları əslində heç bir maraq kəsb etmir. Ola bilsin ki, Mark Kirkin son dövrlər nümayiş etdirdiyi ermənipərəst canfəşanlığına onun növbəti il Senata keçiriləcək seçkilərdə yenidən seçilməsinə ən az şans verilən respublikaçı senator olması da təsir edir. Bu fəaliyyətləri ilə erməni icmasından daha böyük dəstək almağa ümidlidir".

**"Turan" informasiya agentliyinin rəhbəri Mehman Əliyev hesab edir ki, yaranan problemi əvvəlki mərhələlərdə yaşanan proseslərdə axtarmaq lazımdır:** "Azərbaycan hakimiyyəti ATƏT-ə burada seçkilərlə bağlı monitorinq aparmağa şərait yaratmadı. Bununla bağlı ABŞ səfirliyinin bəyanatı oldu, Avropa Parlamenti də iştirakdan imtina etdi. Belə müşahidə olunur ki, Qərb qurumları tərəfindən seçkilərin nəticələri tanınmayacaq. Dinləmələrin indi keçirilməsi seçkilər qabağı ölkəmizdəki ümumi vəziyyəti və seçkilərdən sonra hazırlanacaq hesabatda Azərbaycanda seçkilər öncəsi mühitin bərbad olduğunu göstərməkdir. Seçkilər qabağı seçkilərlə bağlı durum kimi bu dinləməni qələmə vermək olar".

**"Turan" rəhbəri dinləmələrdə məhbusların seçkilər öncəsi əsas müzakirə mövzularından birinə çevrilmələrinin arxasında dayanan mətləblərdən də söz açdı:** "Daim bu məhbuslarla bağlı tələb, xahiş, bəyanatlar olub. Bu şəxslər Qərbdə çox tanınanlardır. Xüsusilə qadın olmaları daha çox diqqət çəkir. ABŞ-da qadın siyasətçilər tərəfindən dünyadakı qadın məhbusların azadlığa buraxılmaları istiqamətində kampaniyaların aparılması barədə qərar qəbul edilib. Leyla Yunus və Xədicə İsmayılın adının çəkilməsi bununla bağlıdır. 1 noyabrdan sonra seçkilərə münasibət olacaq. Hər cür münasibət gözlənilir. Noyabrın 20-də ölkə başçısının Antalyaya səfəri gözlənilir. Hesab edirəm ki, G20-lərin tədbirinə belə ağır yüklərlə getmək çətin olacaq. Seçkilərin dəyərləndirilməsi və siyasi məhbuslar məsələsində..."

**İqtidaryönlü deputat Fəzail Ağamalı Azərbaycana qarşı Qərb tərəfindən növbəti təzyiq kampaniyasına start verildiyi qənaətindədir:** "Mətbuatda sübut olundu ki, bu proseslərin arxasında ABŞ-ın dövlət katibi Con Kerri dayanır. O da bəllidir ki, Kerri bugünkü vəziyyətinə, ayaqda durmasına görə erməni lobbisinə borcludur. Onların sifarişlərini yerinə yetirir. ABŞ-da müəyyən dairələr var ki, öz maraqlarında Azərbaycanın bəzi layihələrdə yer almasını istəyirlər. İrana sanksiyalar, təzyiqlər olanda Amerika çalışdı ki, Azərbaycan yanında olsun. Bununla bağlı ölkəmizə qarşı təzyiq, təhdidlər oldu. Amma Azərbaycan sona qədər bu planın tərkib hissəsi olmadı. Rusiya və ABŞ arasında Suriya məsələsində yaşananlar mənə elə gəlir ki, növbəti dünya müharibəsinin olacağını qaçılmaz edəcək. Belə bir vəziyyətdə onlar Azərbaycandan Rusiyaya qarşı vasitə kimi istifadə etmək istəyirlər. Bu da dövlət maraqlarımıza tamamilə ziddir. Bir dövlətin yanında olub, digər dövlətə qarşı olan layihələrdə iştirak etmək niyyətində deyilik. Heydər Əliyevin bununla bağlı ortaya qoyduğu xətt bu gün ölkə başçısı tərəfindən uğurla davam etdirilir. Hesab edirəm ki, ən doğru xətdir. Sadəcə, Amerika demokratiya və insan haqları kimi məsələlərdən istifadə edərək ölkəmizə qarşı təzyiqləri davam etdirir. Bundan əvvəl Yunuslar və Xədicə İsmayılla bağlı bilavasitə Amerikanın təzyiqi ilə xarici təşkilatlar tərəfindən qətnamələr qəbul edilib. Bundan sonra da bu cür siyasətin davam etməsinin şahidi ola bilərik. Amma heç bir əsası yoxdur. Təzyiqlərdən başqa bir şey deyil. Dinləmələrin seçkilərə heç bir təsiri olmayacaq. Xalqımızın iradəsi var. Bütün bunlar onu göstərir ki, Amerikadakı anti-Azərbaycan qüvvələr ölkəmizə qarşı olan çirkin niyyətlərinə son qoymaq istəmirlər".

❑ **Cavanşir ABBASLI**

# ADP sədri dialoqun alınmamasında Moskvanı suçlu görür

## Sərdar Cəlaloğlu: "Mən bu qənaətə gəldim ki, hakimiyyətin iradəsinə xarici güc təsir edib"

**Prezidentin köməkçisi, Prezident Administrasiyası İctimai-siyasi şöbəsinin müdiri Əli Həsənovla siyasi partiyaların üçüncü görüşündən 4 aydan artıq vaxt keçib. Bu ilin əvvəlindən başlanan görüşlər iştirakçıların ümumi razılığı ilə iki aydan bir keçirilməli idi. Bəzi müxalifət qurumlarından dördüncü görüşdə 1 noyabr parlament seçkiləri mövzusunun müzakirəyə çıxarılmasını hələ seçki kampaniyası başlamazdan öncə təklif etsələr də, görüş hələ də baş tutmayıb.**

Bugünlərdə isə məlumatlar yayılıb ki, müxalifət-iqtidar görüşlərini təşkil edən Prezident Administrasiyasına qarşı çıxıb bu prosesin dayandırılmasına səbəb sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudov olub. Bu barədə xəbərlərdə deyilir ki, məhz MTN agenturası dialoqda iştirak edən bir partiya sədrinin iqtidarla bağlı sərt mövqeyini əks etdirən audioyazını ortaya qoyub. Böyük ümidlərlə başladılmış dialoq bundan sonra dayandırılıb, heç bir tutarlı səbəb göstərilmədən bu prosesə nöqtə qoyulub. İddia olunur ki, bu siyasi prosesi MTN-in məlum audioyazı avantürası bitirib.

Əli Həsənovla keçirilən görüşlərdə iştirak edən və hakimiyyət-müxalifət dialoqunun əsas tərəfdarlarından sayılan **ADP sədri Sərdar Cəlaloğlu** isə hesab edir ki, Azərbaycanda başlanan hakimiyyət-müxalifət dialoqu, münasibətlərin normal istiqamətdə inkişafı prosesinin qarşısı Rusiya tərəfindən alınıb: "Siyasi dialoq məsələsinin birbaşa prezidentin iradəsindən asılı olaraq reallaşdırıldığını Əli Həsənov bizə demişdi. Həmçinin bəyan etmişdi ki, hakimiyyət bu görüşlərin davamlı olmasını, daha da inkişaf etməsini istəyir. Əli Həsənovla bizlərin görüşlərində İlham Əliyevi narazı salacaq və görüşlərin dayandırılmasına səbəb olacaq heç bir çıxış, söz olmayıb. İkincisi, Əli Həsənov ölkə başçısının nümayəndəsi olaraq həmin görüşlərdə iştirak edirdi və o, kiminsə İlham Əliyevin əleyhinə danışmasına şərait yaratmazdı. Üçüncüsü, heç kim o görüşlərdə meydan oxumağa getmirdi. Axırıncı görüşdən öncə dialoqun bütün mahiyyətinin dəyişdirilməsi və sonra da başlanan prosesin dayandırılması birbaşa xarici faktorla bağlıdır. Əli Həsənovun iştirakı ilə hakimiyyətin başlatdığı siyasi dialoq üçüncü görüşdə tamamilə 180 dərəcə əks istiqamətə, mahiyyətə yönəldildi. Mən bu qənaətə gəldim ki, hakimiyyətin iradəsinə xarici güc təsir edib. Yəni hakimiyyətin müxalifətlə, nəhayət, dil tapmasına, bu ölkədə yeni bir müsbət tendensiyanın başlanmasına həmin xarici güc qadağa qoyub. Azərbaycanda müxalifətlə iqtidarın daim qarşıdurma vəziyyətində olması həmin xarici gücün mənafelərinə uyğundur. Ona görə də həm dialoqun, həm müxalifətin parlamentə buraxılmasının qarşısını aldılar və müxalifətlə tamamilə başqa ritorika ilə danışmağa başlandı".



**"Xarici güc" deyərkən hansısa beynəlxalq təşkilatı, yoxsa dövləti nəzərdə tutursunuz" sualına S.Cəlaloğlu belə cavab verdi:** "Bəzi siyasətçilər mediaya açıqlamalarında hakimiyyətdəki Rusiyaya bağlı adamların dialoqun qarşısını aldığını bildirirlər. Lakin əslində burada hansısa məmurlardan yox, konkret dövlətdən danışmaq daha düzgün olardı. Azərbaycanda hakimiyyətlə müxalifət arasında siyasi dialoqun qarşısını Rusiya aldı. Bununla həm də Rusiyanın siyasəti əleyhinə olan siyasi fiqurların parlamentə düşməsinin qarşısını Moskva aldı. Məsələn, mən parlamentdə olsaydım Rusiyanın xarici siyasətinə qarşı danışacaqdım. Çünki Rusiyanın Azərbaycanı yenidən öz imperiya sərhədlərinə salmağının qəti əleyhinəyəm. Parlamentdə də bu mövqeyimi ortaya qoyacaqdım. Mənim kimi siyasi fiqurların parlamentə düşməsi Rusiyaya sərf etmirdi".

**Xatırladaq ki, bir neçə həftə öncə KXCP sədri Mirmahmud Mirəlioğlu da dialoqun dayandırılmasında Rusiya izinin olduğunu demişdi. "Yeni Müsavat"a açıqlamasında o bildirmişdi ki, hakimiyyətdəki rusiyapərəst qüvvələr iqtidarla-müxalifət arasında dialoq məsələsini dəfn etməyə nail olublar:** "Azərbaycanı, onun xalqını düşünməyənlər, dövlətçiliyə xarici və daxili təhdidləri nəzərə almayanlar hakimiyyətdə söz sahibi olduqları üçün inandırıcı deyil ki, görüş baş tutsun. Azərbaycanda nəhayət ki, dialoq mühiti başlanmışdı və davam etməsi nəzərdə tutulurdu. Amma Azərbaycan hakimiyyəti böyük ehtimalla moskvapərəstlərin diktəsi ilə bu məsələni dəfn elədi. Biz seçki məsələsinin müzakirə edilməsinin məqsədəuyğun olduğunu dilə gətirdik. Onlar isə seçkilərdə həmişəkindən də betər saxtakarlıq etmək qərarında olduqlarını seçki kampaniyasına start verilməndən nümayiş etdirməyə başladılar".

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 241 (6269) 30 oktyabr 2015



# Dəryazla oynamaq zamanı

Zamin HACI
zaminhaci@gmail.com

**Neft pulları sel kimi gələndə yapistlər cürbəcür şirkətlər yaradıb bu çirkli-pasaqlı, mazutlu pulları yuyurdular. Hər biri hansısa nazirə, məmura bağlı olan bu şirkətlər bank sektorundan tutmuş yol çəkilişinə qədər bütün sahələri inhisara almışdılar. İqtisadiyyatda tenderlərə, projelərə bunlardan başqa kimsə girə bilməzdi. Biri Abidin idi, başqası Ziyanın, bir ayrısı Cahangirin... Beləcə, nüfuz sahələri canavarlar arasında bölüşdürülmüşdü. Təbii, hər biri ümumi qazanın da payını vaxtlı-vaxtında verirdi. Əslində bu pullar elə ümumi qazanın pulları idi, yuyulmağa verilirdi. Bu nazirlərə "OMO", "Ariel", "Ramiz", "Tayd" demək olardı.**

İndi pul yoxdur. O üzdən "Azərinşaatservis"in beş aydır maaş ala bilməyən fəhlələri Bakıda etiraz aksiyası keçirdilər. Doğrusu, buna aksiya demək də olmaz, bunu aksiyaya polis çevirdi. Təsəvvür edin, pulunu ala bilməyən fəhlələr bir yerə yığışıblar, sonra ordan toplu halında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə getmək qərarına gəliblər. Çox normal bir haldır. Ancaq polis onların qabağını kəsib deyir getməyin, dağılışın. Absurd isə polisin əmri idi: "Yürüş halında yox, bir-bir dağılışın. Burda isə topa şəkildə durmayın". Əcəb məntiqdir. Görəsən bu hüquq-mühafizə orqanlarında işə girərkən adamlar beyinlərini harasa təhvil verirlər, ya əvvəldən olmur?

"Azərinşaatservis" adlı bu gülməşəkər müəssisə isə neft qiyməti düşənəcən gizli iqtisadiyyatımızın oyunçularından biri idi. "Əsas liqa"da lider olmasa da, autsayder də sayılmazdı. Azərbaycanda xeyli avtomobil yollarının çəkilişi buna verilmişdi, Bakı-Tiflis-Qars dəmir yolunun tikintisində də şirkətin payları vardı. İndi deyirlər şirkət Beynəlxalq Bankın vurulmuş cahangiri Cahangir Hacıyevin qanadları altında imiş. Yeri gəlmişkən, mən maraq üçün "Azərinşaatservis"in saytına baxdım. Gülməli bir sayt idi, örnək üçün, şirkət haqda məlumatlar bölümündə belə bir cümlə yazılmışdı: "Azərinşaatservis MMC 2003-cü ildə iki yerli şirkət tərəfindən təsis edilmişdir". Ta bu şirkətlərin adı-soyadı nədir, o vaxtacan hansı qələti qarışdırıblar, ümumiyyətlə niyə birləşiblər - heç zad yoxdur.

Belə sabun köpükləri hələ çox partlayacaq, yazıqlar olsun ki, bunun zərbəsi halal zəhmət haqlarını ala bilməyən kasıb insanlara, fəhlələrə dəyir. Cahangir Hacıyev də itirir, fəhlə "Cahangir Hacıyev" də. Sadəcə, sonuncunun itirdiyi son ümidləri, yaşamaq üçün son imkanlarıdır. Fərq bundadır. Bir ata sözündə deyilən kimi: "Hamını ley vurdu, bizim kimi tükü dağılan olmadı". Ley yırtıcı quşdur, qartalın bir cinsidir. Burada böhran rolunu oynayır. Böhran kasıba daha ağırdır.

Bu temada həmişə sovet yazıçısı Əli Vəliyevin başına gələni örnək kimi deyirəm, indi də yazım. Əli Vəliyev muzdur keçmişi ilə öyünürdü, bu haqda hər yerdə yazırdı. Karyera qurmaq üçün muzdurluq fəxr sayılırdı, elə indi bizi idarə edənlər də həmin muzdurların nəslidir, ona görə muzdla işləyənlərə belə amansızdırlar. Bunda sözüm yox, Vəliyevin xatirəsinə dönək. Bir dəfə muzduru olduğu bəy gələcəyin yazıçısına deyir: "Əli, o samovarı gətir, əlimi yuyum". Əli gətirir, bəy samovarı açıb əlini yuyur. Sonra deyir indi mən tutum, sən yu. Muzdur bu hörmətdən təəccüblənir, amma bəyin sözündən çıxa bilmir, əlini yuyur və... çox pis yandırır! Sən demə samovar qaynar imiş, bəy isə üzə vurmayıb, özünü muzdurun qabağında sındırmayıb, belə cəzalandırmaq istəyib. Qulaq asanlar deyir ki, Əli, burda inciməli bir şey yoxdur, hesab bərabər olub, sən onu, o da səni yandırıb. Bu zaman Əli Vəliyev deyib: "Siz bilmirsiniz, biri var bəy əli yana, biri var muzdur. Muzdur əli daha pis göynəyir".

Maraqlı müşahidəmi də bölüşüm. Son vaxtlar internetdə ekzotik məkanlarda qol götürüb oynayan azərbaycanlıların videoları yayılır. Mən azı ikisini görmüşəm. Birində bir ağsaqqal ot biçdiyi yerdə dəryazı saz kimi tutub, əlində fırladıb oynayırdı. O birində isə tikintidəki fəhlələrimiz əllərinə keçən dəmir-dümürü guya musiqi aləti kimi "çalıb" əylənirdilər.

Bəlkə də onlar "Azərinşaatservis"in işçiləri idilər.

# Bakıda həmsədrlər üçün "soyuq duş"

## Azərbaycan prezidenti diplomatlarla daha açıq və sərt şəkildə danışdı; Qarabağın azərbaycanlı icmasının rəhbəri də həmsədrlərə etiraz bildirib

**ATƏT-in Minsk Qrupunun həmsədrləri regiona səfərlərini başa vurdular. Ənənəvi xarakterli bu səfərdə diqqəti çəkən əsas məqam Azərbaycan prezidentinin diplomatlarla daha açıq və sərt şəkildə danışması, onların fəaliyyətinə tənqidi yanaşması, irad bildirməsi oldu.**



Qeyd edək ki, prezidenti İlham Əliyev ATƏT-in Minsk Qrupunun həmsədrləri Pyer Andrie (Fransa), İqor Popov (RF) və Ceyms Uorliki (ABŞ), habelə ATƏT-in hazırkı sədrinin şəxsi nümayəndəsi Andjey Kaspşiki qəbul edib. İ.Əliyev bildirib ki, Ermənistan rəhbərliyi təxribatlara son qoymur. O xatırladıb ki, ötən ilin oktyabrında Parisdə Azərbaycan və Ermənistan prezidentlərinin görüşündən sonra Ermənistan tərəfi işğal edilmiş ərazilərdə genişmiqyaslı hərbi təlimlərə başlayıb. Azərbaycan tərəfi bir neçə gün cavab verməyib. Amma erməni helikopterləri açıq-aşkar Azərbaycan mövqelərini təhlükəyə məruz qoyduqda onlardan biri məhv edilib. Ermənistan müntəzəm olaraq dinc əhaliyə atəş açırdı, hətta toy mərasimini hədəf seçmişdi, bunun nəticəsində mülki şəxslərə ziyan dəyib. Prezident təəssüflə qeyd edib ki, beynəlxalq ictimaiyyət, xüsusən vasitəçilər bu təcavüzkar əməllərə adekvat reaksiya vermir. «Bundan başqa, Sərkisyan rejimi bu yaxınlarda yeni siyasi təxribata əl atıb, Dağlıq Qarabağı Ermənistanın bir hissəsi elan edib. Vasitəçilər bu bəyanatlara reaksiya vermir ki, bu da onların missiyasına kölgə salır" deyə, Əliyev bildirib.

**Görünür, elə dövlət başçısı səviyyəsində məzəmmət olunmalarının nəticəsidir ki, amerikalı həmsədr Ceyms Uorlik ehtiyatlı şəkildə də olsa, "Ermənistan-Azərbaycan sərhədində və qoşunların təmas xəttində baş verən insidentlər qəbuledilməzdir" söyləyib. Keçirilən monitorinq zamanı təmas xəttində baş vermiş insidenti, özlərinin atəşə tutulmasını şərh edən diplomatın dediyinə görə, monitorinq zamanı atəş səsləri eşidilib:** "Mən təmas xəttində böyük təhlükənin olduğunu və bunun nə dərəcədə qorxulu olduğunun şahidi oldum. Biz təhlükəsiz yerdəydik. Lakin monitorinqi aparan səhra komandirləri güllələrin altında, açıq yerdə idilər". **Lakin o, yenə də konkret hədəf göstərməkdən yayınıb:** "Atəşin haradan açıldığını müəyyən etmək demək olar ki, mümkünsüzdür". **Azərbaycan və Ermənistan prezidentlərinin görüşməsi barədə isə amerikalı həmsədr hər iki prezidentin görüşmək istədiyini deyib. C. Uorlikin sözlərinə görə, hazırda görüşün təfərrüatları üzərində işləyirlər:** "Prezidentlər münaqişənin hərtərəfli həlli üçün ortaq yolu, eyni zamanda təmas xəttində atəşkəs rejiminin pozulmasını müzakirə etməlidirlər. Bugünkü vəziyyət iki il əvvəlki vəziyyətdən tamamilə fərqlənir. İlk dəfədir ki, biz təmas xəttində ağır artilleriyadan istifadənin şahidi oluruq. Bunun nəticəsində təəssüf ki, biz sivil vətəndaşların ölməsinin şahidi oluruq. Gərginlik gündən-günə daha da artır. Prezidentlərin görüşü zamanı gərginliyin artmasını müzakirə etməyi çox vacib hesab edirəm. Biz həmçinin xalqlar arasında etimad tədbirlərinin gücləndirilməsi, icmalar arasında dialoqun yaradılmasını da müzakirə etməliyik". **Ceym Uorlik prezidentlərlə danışıqda onlara öz xalqlarını müharibəyə deyil, sülhə hazırlamalı olduğunu dediklərini xatirladib.** "Prezidentlər regionda yaşayan bütün xalqlara müraciət etməlidirlər ki, sülhə hazır olsunlar. Bu münaqişənin nizamlanması yeni dövrə qədəm qoyacaq və regionun inkişafı üçün əhəmiyyət kəsb edir. Cənubi Qafqazda yaşayan xalqlar çətin tarixə malikdir. Ümid edirəm ki, bu münaqişənin həlli hər iki xalqı irəli aparacaq. Düşünürəm ki, gələcək nəsillərə burada daha stabil gələcək borcluyuq. Hər iki ölkənin xalqları arasında əlaqə yaradılmalıdır və onlar gələcəkdə birlikdə yaşamağı bacarmalıdır" deyə, o vurğulayıb. Lakin həmsədrlərin bu dəfə də işğalçı ilə təcavüzə məruz qalan tərəf arasında bərabərlik işarəsi qoyması, silahların yığışdırılmasına, sülhə çağırış etmələri anormal situasiya yaradır. Lakin həmsədrlərin açıq şəkildə narahat olduqları da diqqət çəkir. Hesab olunur ki, yeni müharibə qorxusu onları çəkindirir.

**Hərbi ekspert Üzeyir Cəfərov hesab edir ki, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin regiona növbəti səfəri də əvvəlki səfərlər kimi boş, mənasız və sadəcə, öz maraqlarına hesablanmış bir səfərdir:** "Onlara öz "geniş və titanik" sülhyaratma missiyası ilə bağlı hesabat hazirlamaq gərəkdir və onlar da məhz bu məqsədlə imkan düşdükcə regiona və dünyanın müxtəlif kurort şəhərlərinə turist səfərləri kimi gedib gəlirlər. Bu adamlar özləri də son vaxtlar nə istədiklərini düz-əməlli başa düşmürlər deyəsən. Gah snayperlərin geri çəkilməsini təklif edirlər, gah silahları geri çəkməyi təklif edirlər. Mən sabah həmsədrlərdən hansısa daha əcaib bir təklif eşitsəm, təəccüblənmərəm. Bir sözlə, bunlar heç vaxt ATƏT-in Minsk Qrupu çərçivəsində etməli olduqları konkret fəaliyyətə və vəzifə borclarına sadiq olmayıblar və olmayacaqlar. Bunların münaqişənin müddətinin daha da çox uzanması və öz şəxsi maraqlarını təmin etməkdir ki, buna da nail olublar".

**Bayram Səfərov görüş barədə "Yeni Müsavat"a açıqlama verdi:** "Onlar deyir insanlar qayıtmalıdır, qarşı tərəflə görüşmək lazımdır. Biz də soruşduq ki, insanlarımız ora necə qayıtmalıdır? İşğal olunmuş ərazilərdə silahlı adamlar var, təhlükəsizlik məsələləri həllini tapmalıdır ki, mülki əhali də öz yurduna qayıtsın. Həmsədrlər dedilər ki, bu məsələlər müzakirə olunur". **İcma rəhbərinin sözlərinə görə, həmsədrlərin son səfərindən qeyri-adi bir şey gözləmir və bu ənənəvi səfərlərdəndir:** "Ermənilərlə görüşüb onları dinləmişdilər, sonra da gəlib bizi dinlədilər. Amma bizim prezidentimiz onlara nə lazımdırsa, demişdi, özü də çox sərt şəkildə. Elə bizim də mövqeyimiz sərt oldu. Etirazımızı bildirdik, dedik ki, biz sizin işlərdən razı deyilik, işinizdə dönüş yaradın. Təbii ki, həmsədrlər də öz dövlətlərinin marağına uyğun davranırlar, onlardan qeyri-adi hərəkət gözləmək olmaz".

**Həmsədrlərin fəaliyyətsizliyi gələcəkdə Azərbaycanın bu formatdan imtinası ilə nəticələnə bilərmi? B.Səfərov qeyd etdi ki, həmsədrlərdən imtina etmək çıxış yolu deyil: "Bununla nəyə nail olmaq mümkündür?"**

❑ Cavìd TURAN

# MTN-dəki “təmizləmələr” Elmar Hüseynovun qətlinin açılmasına təkan verə bilər

## “Türkiyə xüsusi xidmət orqanları Azərbaycan tərəfinə qətlin iştirakçılarının adlarını təqdim edib”

**MTN-də cərəyan edən olaylar 2005-ci il martın 2-də Bakıda yaşadığı binanın girişində öldürülən “Monitor” jurnalının baş redaktoru Elmar Hüseynovun qətlini bir daha diqqətə gətirib.**

Məsələ burasındadır ki, E.Hüseynovun qətlindən sonra qətlin icraçıları və təşkilatçısı haqda mediada dərc olunan yazılarda qətlin təşkilatçısı kimi bir neçə gün əvvəl işdən çıxarılan MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin rəisi, general-mayor Akif Çovdarovun adı hallanıb.

Konkret olaraq 2010-cu ilin yayında həbsdə olan jurnalist Eynulla Fətullayev media orqanlarına müraciətində qətlin A.Çovdarov tərəfindən təşkil olunduğunu bildirib. Jurnalistin həbsxanadan media orqanlarına göndərdiyi məktubda deyilirdi ki, Akif Çovdarov öz rəhbərliyinin tapşırığı ilə bu və digər qətllərin həyata keçirilməsi ilə məşğul olub. “Çovdarov uzun müddət qətlin icraçılarını axtarıb. Hələ 2004-cü ilin sonlarında o, 8 saylı cəzaçəkmə müəssisəsində saxlanan "kriminal avtoritet"ə müraciət edib. Ona pul mükafatı əvəzində Elmar Hüseynovun qətlini təşkil etmək təklif olunub, lakin avtoritet bundan imtina edib. Bundan sonra polkovnik bu qətli həmyerlisi Gürcüstan vətəndaşı Serko Darvişevə tapşırıb. Teymuraz Əliyev və Tahir Xubanovun da daxil olduğu cinayətkar qrup 2 mart 2005-ci ildə jurnalisti qətlə yetirib" deyə, E.Fətullayev məktubunda qeyd edirdi.

**“Turan” informasiya agentliyinin rəhbəri Mehman Əliyev “Akif Çovdarovun Elmar Hüseynovun qətlinə aidiyyətinin nə qədər olması” ilə bağlı suala cavab olaraq dedi ki, hadisədən sonra Türkiyə xüsusi xidmət orqanları Azərbaycan tərəfinə qətlin iştirakçılarının adlarını təqdim edib:** “Bunu həmin vaxt türklər özləri demişdilər. Bundan sonra onlardan xahiş etdilər ki, buradan getsinlər. Qrup Türkiyəyə gedəndən sonra rəhbəri işdən çıxarıldı. Məsələ ört-basdır oldu”.

**M.Əliyev hesab edir ki, Azərbaycan rəhbərliyində qətlə bağlı informasiya var:** “Sadəcə olaraq, qətlin açılması üçün siyasi iradə lazımdır. Bu məsələnin açılmasının birbaşa MTN-lə əlaqəli olmasını görmürəm”.

**“Qanun” nəşriyyatının rəhbəri Şahbaz Xuduoğlu A.Çovdarovun adının baş redaktorun qətlində hallandığını, versiyalardan biri kimi qətlin təşkilatçılarından birinin onun olduğunu söylədi:** “Hər halda, indi elə məqam gəlib ki, bu iş dərindən araşdırılsın. Bildiyim odur ki, MTN Elmarın işini dondurub. Yəni MTN işin



araşdırılmasında maraqlı deyildi, işin açılmasında həvəsli görünmürdü. Ola bilər ki, yeni rəhbərlik işin açılmasında maraqlı olsun. Arxivlərə atılmış işləri qaldıracaq və günahkar şəxslərin üzə çıxmasına şərait yaradacaq”.

**Ş.Xuduoğlu deyir ki, belə ağır cinayətlər baş verəndə bütün versiyalar yoxlanılmalı, adı keçən bütün şəxslər dindirilməlidir:** “Elmarın qətlində bir versiya kimi Çovdarovun adı hallanırdı. Amma istintaq həmin yeni vəziyyəti nə qədər araşdırdı, işlədi, bundan məlumatım yoxdur. İstintaq bütün versiyaları yoxlamalı idi. Mənə elə gəlir ki, bu məsələ ilə bağlı Çovdarov nəinki dindirilib, heç ümumiyyətlə, ona yaxın gedilməyib. İndi elə bir şərait yaranıb ki, dindirilə bilər”.

**Ş.Xuduoğlu MTN-dəki “təmizləmələr”dən sonra baş redaktorun qətlinin yenidən araşdırılmasına zərurət yarandığını dedi:** “Jurnalist təşkilatları var, onlar da müraciət edə bilər. Biz də qoşula bilərik".

**Araşdırmaçı-jurnalist Çingiz Sultansoy deyir ki, baş redaktorun qətlinin yenidən araşdırılması zərurəti var. O, 2006-cı ildə Tbilisidə qətldə adı hallanan Teymuraz Əliyevlə görüşdüklərini və onun yerinin bəlli olduğunu söylədi. Qeyd etdi ki, bu günə qədər onlara özünü Teymuraz Əliyev kimi tanıdan şəxsin müəyyən edilərək istintaqa cəlb edilməməsi iş üzrə istintaqın aparılmadığını söyləməyə əsas verir:** “Özünü Teymuraz kimi təqdim edən şəxslə görüşməyimizin təşəbbüskarı onu tapan Eynulla Fətullayev idi. Biz Bakıya qayıdandan sonra MTN-ə çağırıldıq. Mən o vaxtı şəkilləri diskdə müstəntiqə təqdim etdim. Müstəntiq dedi ki, siz nədən bilirsiz ki, həmin görüşdüyünüz şəxs Teymuraz Əliyevdir. Dedi ki, sizi aldadıblar. Tutaq ki, görüşdüyümüz şəxs Teymuraz deyildi. Əgər bizimlə görüşən adam Teymuraz deyilsə, onunla əlaqəli şəxsdirsə, onda MTN onunla niyə maraqlanmadı? Niyə həmin adamı müəyyən edib soruşmadılar ki, xeyir ola, niyə Teymurazın adından çıxış edib, danışırsan?"

Ç.Sultansoy deyir ki, qətldə Akif Çovdarovun adı hallanırdı. İşin istintaqı da Baş Prokurorluqdan alınıb MTN-ə verilib. İstintaq getmir, tormozlandığı üçün bundan MTN rəhbərliyinin maraqlı olduğunu söyləməyə əsaslar yaranıb.

Ç.Sultansoy deyir ki, MTN-dəki “təmizləmələr” bitəndən sonra Elmar Hüseynovun qətlinin araşdırılmasının yenilənməsi ilə bağlı istintaqa ünvanlanacaq müraciətə imza atmağa hazırdır.

❑ **E.MƏMMƏDƏLİYEV**

# İrəvan və Tiflis Bakıya qarşı məkrli anlaşma içində - şok gəlişmə

## Bu gün Ermənistan prezidenti Gürcüstana gedir; əsas hədəf iki ölkənin səyləri ilə və İran hesabına Azərbaycan qazından asılılığı aradan qaldırmaqdır; işğalçı ölkənin götürəcəyi qazanc da var; Sərkisyanın İlham Əliyevdən 4 gün qabaq Tiflisdə olması təsadüfdümü?..

**Gürcüstanın qaz bazarı ətrafında maraqlı, eyni zamanda Azərbaycanın mənafeyinə toxunan proseslər davam edir. Xəbər verildiyi kimi, az öncə ölkənin energetika naziri Kaxa Kaladze Gürcüstanın təbii qaza olan ehtiyacını Azərbaycanın ödəmək gücündə olmadığını bəyan edərək, Rusiyanın “Qazprom” şirkəti ilə əlavə qaz alınmasına dair danışıqlar aparıldığını bildirib.**

SOCAR-dan dərhal bu iddianı təkzib edən açıqlama gəlsə də, ardınca məlum oldu ki, rəsmi Tiflis Rusiya ilə qaz tədarükü yönündə danışıqları dayandırmayıb. Sonuncu belə bir görüş İtaliyanın Milan şəhərində Kaladze ilə “Qazprom” şirkətinin icraçı direktoru Aleksey Miller arasında olub.

İlk baxışda Gürcüstan hökumətinin soyuq qışın astanasında qaz satıcılarının sayını artırmaqla daha ucuz mavi yanacağa ümid eləməsi anlaşıqlı görünə bilər. Ancaq mavi yanacaq artıq çoxdan postsovet məkanı və Avropa ölkələri üçün geosiyasi amil, Kremlin rəqib dövlətlərə təzyiq və şantaj vasitəsi rolundadır. Bunu kim bilməsə də Qərbə, Avropa Birliyinə, NATO-ya inteqrasiya kursu götürmüş gürcü hökuməti çox yaxşı bilir.

Elə işin başqa bir maraqlı tərəfi də prezident Georgi Marqvelaşvilinin hökumətin Rusiya qazı ilə bağlı apardığı danışıqlardan narahat olmasıdır. Qəribədir ki, prezident bir neçə dəfə bu məsələni hökumətin toplantısında müzakirə eləməyi tələb eləsə də, istəyinə nail olmayıb.

***

Bu arada Kaladze gündəmə düşə biləcək daha bir açıqlama verib. Nazir söyləyib ki, Gürcüstan öz qaz bazarının ehtiyaclarını ödəmək üçün İranın resurslarından da istifadə edə bilər və bu məqsədlə o,



noyabrın ortalarında Tehrana səfər etməyi planlaşdırır.

Burdaca vurğulayaq ki, İran üzərindən sanksiyaların götürülməsindən sonra onun Avropa qaz bazarı üçün də önəmi artıb, ən azından qitənin Rusiya qazından asılılığını azaltmaq fürsəti ortaya çıxıb. İran qazının Avropaya hansı marşrutla çıxarılacağı bu xüsusda müzakirə ciddi mövzulardan biri olaraq qalır.

Diqqətçəkicidir ki, nazirin İran açıqlamasının ertəsi günü Ermənistan prezidenti Serj Sərkisyanın öz arvadı ilə oktyabrın 30-da Gürcüstana işgüzar səfərə gedəcəyi barədə xəbər yayılıb. Gürcüstan KİV-nin bildirdiyinə görə, Sərkisyan öz həmkarı Marqvelaşvili, baş nazir İrakli Qaribaşvili və parlamentin spikeri David Usupaşvili ilə görüşəcək. Dövlət başçıları mətbuat üçün birgə bəyanat verəcəklər.

Gürcü qaynaqlarının iddiasına görə, ikitərəfli danışıqlarda əsas müzakirə mövzusu yəqin ki, İran qazının Gürcüstana çatdırılmasına dair regional layihədə Ermənistanın iştirak mümkünlüyünü müzakirə eləməkdir. Xatırlatmaq yerinə düşər ki, səfərdən bir gün öncə İran qazının Gürcüstana Ermənistan ərazisindən keçəcəyinin mümkünlüyü haqda gürcü KİV-lərində məlumatlar gedib.

***

Belə olacaqsa, bu, artıq Gürcüstanın işğalçı Ermənistanın da iştirakı ilə həm SOCAR-ı *(Azərbaycanı)* Gürcüstanın qaz bazarından sıxışdırması və ya onun payını minimuma endirməsi demək olacaq, həm də təcavüzkar ölkənin Gürcüstan hesabına özünün energetik durumunu yaxşılaşdırması və büdcəsinə əlavə vəsaitlər alması anlamına gələcək. Çünki tranzit qaz kəmərinə görə Tiflis və Tehran İrəvana haqq ödəməli olacaq.

Beləcə, İrəvan və Tiflis - Azərbaycanın düşməni ilə Rusiyanın düşməni faktiki, Bakıya qarşı məkrli qaz anlaşması içində imiş kimi görünür. Böyük ehtimalla, bu məsələ Azərbaycan prezidenti İlham Əliyevin Serj Sərkisyandan cəmi 4 gün sonra Tiflisə edəcəyi səfərin əsas mövzularından olacaq.

Hər halda, vaxtilə Gürcüstanı donmaqdan xilas eləmiş Azərbaycanın qonşu ölkədən bu yöndə gözləntisi var və haqqı çatır ki, qərb qonşumuzun təcavüzkar Ermənistanı gücləndirməsinə görə Tiflisdən hesab sorsun və ya ən azı, ondan izahat istəsin. Şübhə yox ki, baş nazir İrakli Qaribaşvilinin bu ayın əvvəlində təcili şəkildə Bakıya səfər edərək, İlham Əliyevlə 3 saat danışıq aparması da situasiyanın həssaslığı və mürəkkəbliyindən xəbər verir.

***

Məsələnin başqa bir maraqlı tərəfi əlbəttə ki, qazla bağlı Tiflis-Tehran-İrəvan üçbucaqlı mümkün işbirliyinə Moskvanın hansı reaksiyanı verəcəyi ilə bağlıdır. Belə baxanda Rusiya öz forpostunun iqtisadi təcriddən qismən qurtulmasında maraqlıdır - ən azı o səbəbə ki, daxildə Kremlə qarşı neqativ erməni ictimai ovqatı səngisin - lakin o biri yandan İran qazı Gürcüstan bazarında “Qazprom”a rəqib olsa və bununla da Tiflisin Moskvadan gözlənilən asılılığı azalsa, üstəlik, yeni regional qaz projesi Ermənistanın daha müstəqil siyasət yürütməsinə gətirsə, Rusiya məmnun qalmayacaq.

Burdaca yeri var onu da qeyd edək ki, amerikalı və avropalı siyasət adamları, ekspertlər və diplomatlar, dəfələrlə və açıq şəkildə bəyan ediblər ki, Moskvanın təsirindən qurtulmaqdan ötrü İrəvan ilk növbədə Rusiyadan energetik asılılığını azaltmalıdır.

Görək, Kremlin reaksiyası nə olacaq. O, satellit Ermənistana göz ağardacaqmı? Yada salaq ki, indiyədək Ermənistanın Rusiya qazına alternativ qismində qonşu İrandan qaz almaq planlarına Moskva həmişə əngəl yaradıb və imkan verməyib.

❑ **Siyasət şöbəsi**



# Çovdarovu uçurumdan qoruyan...

Xalid KAZIMLI

*12 gündən artıqdır ki, hər gün bu cür xəbər başlıqları oxuyuruq:*

*"Eldar Mahmudovun daha bir yaxın adamı vəzifədən götürüldü";*

*"MTN-dən daha bir general postundan uzaqlaşdırıldı";*

*"Eldar Mahmudovun yaxın qohumu vəzifəsindən çıxarıldı və həbs edildi";*

*"MTN-in generalı Akif Çovdarov ev dustağı edilib";*

*"Akif Çovdarovun oğlu MM-dəki vəzifəsindən qovuldu";*

*"MTN generallarından şikayətçi olan sahibkarlar danışdı".*

Bir sözlə, bu kimi xəbər başlıqları çoxdur. Bu işlə bağlı həbsə alınanların sayı da 15-dən artıqdır və həbslər davam edir.

Jurnalistlərin lakonik şəkildə "MTN işi" adı qoyduqları qalmaqalla bağlı vəzifəsindən, işindən götürülənlər, adları qara siyahıya düşənlər çoxdur, heç dəqiq sayı, statistikası da yoxdur.

Bununla belə, bu qədər ağır cinayətlərin üstü açılsa da, həbs olunanların dairəsi hələ də məhduddur. Hələ də bilinmir ki, məsələn, Çovdarovu uçurumdan qoruyan nədir, kimdir.

Prinsipcə, o və digər çete üzvləri artıq həbs olunmalıydılar. Çünki bu cür ittihamlara məruz qala-qala azadlıqda olmaq absurddur.

Unutmayaq ki, qəzaya düşən bəzi sürücülərin haqqında dərhal həbs qətimkan tədbiri seçildiyi ölkənin vətəndaşlarıyıq.

Necə olur, inzibati xətaya görə adamlar həbsə alınır, ancaq ağır dövlət cinayəti törədənlər cəmiyyətdən təcrid edilmir?

MTN işində adı keçən bu qədər general və polkovniklərin içində Çovdarovun personasına fokuslaşmaq, bəlkə də, düzgün deyil, amma bunun ciddi səbəbləri var.

Bu şəxsin adı bir neçə jurnalistlə bağlı qalmaqallı hadisələrdə yer alıb. Hamısından məşhuru odur.

7-8 il öncə jurnalist Aqil Xəlilin başına açılan oyunlarda aparıcı fiqur məhz Çovdarov idi. İlk dəfə onun adını məhz o qalmaqalda gördük. Onun ilk və yeganə şəkli də Binəqədi rayonundakı zeytunluqda çəkilmişdi.

O zaman Çovdarov polkovnik idi. Düşünmək olardı ki, jurnalistin ifşa etdiyi bu şəxs, parkdakı zeytun ağaclarını doğratdırıb iaşə müəssisəsi tikdirdiyi sübut olunan polkovnik cəzalandırılacaq.

Əksinə oldu. Jurnalisti cəzalandırdılar. Ona qarşı elə bir total təqib-təzyiq dalğası başlatdılar ki, xarici ölkə səfirləri işə qarışaraq, Aqil Xəlilin əlindən yapışaraq aparıb təyyarəyə mindirməsəydilər, adam ya öldürülmüş, ya da həbsə atılmış olacaqdı.

Hətta səfirlərin müdaxiləsinə, polislərin mühafizə etməsinə baxmayaraq, MTN əməliyyatçıları jurnalisti aeroprtdaca hop götürmək istəmişdilər. O zaman polislərlə MTN-çilər arasında qarşıdurma olmuşdu, az qala bir-birinə silah çəkmişdilər.

Bunun arxasında məhz Çovdarov dururdu. O vaxt onun iradəsi o qədər güclüydü ki, dövlət televiziyası və digər telekanallar Aqil Xəlilə qarşı quraşdırılmış "homoseksual qalmaqal" da təşkil etmişdilər, üzdəniraq adamları tapıb üzünə qoymuşdular. Onlardan biri "qısqanclıq zəminində" jurnalisti bıçaqlamaq istəmişdi. Hamı bunun qurama iş olduğunu və arxasında MTN polkovnikinin olduğunu bilirdi.

Sonradan o, general oldu və adı bir dəfə də Eynulla Fətullayevin işində çəkildi. O zaman jurnalist həbsxanada idi və bildirirdi ki, Çovdarov şəxsən onun yanına gəlib, hədələyib, bəzi etiraflar edib və sair və ilaxır. O, bu işdən də sıyrıldı.

Son günlərə qədər bu adamın zəhmi, zabitəsi öz naziri Eldar Mahmudovunkundan da ötəydi. Nəyə görə, hansı xidmətlərinin müqabilində Çovdarov bu qədər ötkəm idi, toxunulmaz idi, bilinmirdi. Hələ də bilinmir.

"MTN işi"nin ən qalmaqallı fiquru məhz odur. Belə görünür ki, elə nüfuzuna, səlahiyyətinə görə həmin mütəşəkkil dəstənin ikinci skripkası da Çovdarovdur.

Belə bir ehtimal da var ki, əslində onu istintaqa cəlb edib, lazımi ifadə də alıblar, ancaq haqqında daha kəskin tədbirlər görülməsi seçkidən sonraya saxlanılıb.

Çovdarovun oğlunun parlamentdəki işindən uzaqlaşdırılmasının həmin cəza tədbirlərinin tərkib hissəsi olduğu bildirilir.

İndi kim istəyirsə, bu yazını da "yıxılana balta vurmaq" kimi qələmə verə bilər. Amma biz Çovdarovu məhz zeytunluqda işlədilən baltalardan sonra tanımışdıq.

Sinəsindən bıçaqlanan həmkarımız möcüzə nəticəsində ölümdən qurtarmasaydı, bu gün bəlkə də ona qarşı irəli sürülən ittihamlardan biri də o məsələ olacaqdı.



# Məmur övladları üçün tramplin - Milli Məclisdə iş...

## Müzəffər Baxış: "Milli Məclis Aparatında işləyənlərin əksəriyyəti yüksək vəzifələrdə çalışan şəxslərin ya övladları, ya da yaxın qohumlarıdır"

**Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin rəisi, general-mayor Akif Çovdarovun oğlu Ruslan Çovdarovun Milli Məclisdən işdən çıxarılmasına rəsmi aydınlıq gətirilib. Parlamentin mətbuat xidmətinin rəhbəri Akif Təvəkküloğlu apa.az-a bildirib ki, Ruslan Çovdarov ötən gün öz ərizəsi ilə işdən çıxıb. Ruslan Çovdarov MM aparatının İqtisadi qanunvericilik şöbəsində sektor müdiri vəzifəsində işləyirdi.**

Qeyd edək ki, A.Çovdarov məlum MTN olaylarında adı ən çox hallanan generallardan biridir. Bu mənada onun parlamentdə çalışan oğlunun da işdən azad olunması reallıqda təbii olaraq gündəmə gəlib. Ancaq Azərbaycan reallığında buna bənzər hallar, yəni atasının hərəkətlərinə görə övladının, yaxud yaxın qohumların cəzalandırılması halları əvvəllər də müşahidə olunduğu üçün bu barədə hüquqşünas rəyinə ehtiyac gördük. İstədik araşdıraq, görək bu, normal tendensiyadırmı?

Əslində bu, normal sayıla bilməz. Çünki ola bilər ki, hansısa məmurun övladı da normal fəaliyyətlə məşğuldur və atasının qanunsuzluqlarına şərik olmadığı halda onun cəzalandırılması ədalətli ola bilməz. O başqa məsələdir ki, atasının rütbəsinə, var-dövlətinə arxayın olan oğul bundan iş fəaliyyətində də sui-istifadə hallarına yol verir, münasibətlərdə ədəzəni aşan hərəkətlərə yol verir və s. Ancaq diqqətçəkən bir məqam da var. Adının çəkilməsini istəməyən mənbə bildirdi ki, adətən parlament Azərbaycanın məmur şəxslərinin övladları üçün ən cəlbedici ünvanlardan sayılır. Elə adları qalmaqallarda adlanan bir sıra şəxslərin övladlarının "səsi" ali qanunverici orqandan gəlib. Bu sıraya Gəncənin icra başçısı Elmar Vəliyevin oğlu, nəqliyyat naziri Ziya Məmmədovun deputat qardaşı Elton Məmmədovun oğlunun da Milli Məclisdə çalışdığı məlumdur. Düzdür, Milli Məclisdə çalışanların yazı yüzlərlədir və burada bir neçə tanınmış məmurun olması hələ faiz nisbətini dəyişmir. Lakin istənilən halda məsələnin ictimai maraq kəsb etdiyini nəzərə alıb ekspertə üz tutduq.



Müzəffər Baxış

**Hüquqşünas Müzəffər Baxış bu barədə "Yeni Müsavat"a açıqlamasında vəziyyətin ürəkaçan olmadığını vurğuladı:** "Mən tam məsuliyyətlə bu məsələni açıqlayıram. Əgər Oqtay Əsədov mənim dediklərimlə razılaşmırsa, o halda Milli Məclis Aparatında işləyən şəxslərin siyahısını dərc etsin və kimin hansı vəzifəli şəxsin oğlu, yaxud yaxın qohumu olması barədə mənim fikirlərimi təkzib etsin. Yəni mən tam məsuliyyətlə bildirirəm ki, Milli Məclis Aparatında işləyən işçilərin əksəriyyəti Azərbaycanda bu və ya digər yüksək vəzifələrdə və yaxud ölkə reallığında qəbul edilən vəzifələrdə çalışan şəxslərin ya övladları, ya da yaxın qohumlarıdır. Özü də bu, təkcə Milli Məclis Aparatında deyil, başqa dövlət qurumlarının aparatlarında işləyən şəxslərin əksəriyyəti belə şəxslərdir. Yəni bu, Azərbaycan reallığıdır. Bunu da tam məsuliyyətlə bildirirəm ki, Akif Çovdarovun cinayətkar əməlləri bütün Azərbaycan ictimaiyyətinə bəlli idi. Vaxtilə Aqil Xəlil məsələsi ortaya çıxanda ictimaiyyət tərəfindən araşdırıldı və məlum oldu ki, Akif Çovdarov əvvəllər axtarışda olub, amma bütün bunlara baxmayaraq, o, MTN-ə gətirilib və mühüm bir vəzifəyə təyin edilib. Onun vəzifədə çalışdığı dövrdə törətdiyi cinayət əməlləri də Azərbaycan ictimaiyyətinin bu məsələlərlə maraqlanan şəxslərinə bəlli idi". M.Baxış qeyd etdi ki, Azərbaycan qanunvericiliyinə görə, müvafiq icra hakimiyyətinin müəyyən etdiyi hallardan başqa - belə bir hal da hələ müəyyən olunmayıb - yaxın qohumluğu olan dövlət qulluqçuları bir-birinin tabeliyində işləyə bilməzlər. Ancaq buna da əməl olunmur. Deyək ki, ata nazirdir, oğlu orda idarə rəisidir. Yəni bu da Azərbaycan reallığıdır.

**Konkret halda A.Çovdarovun oğlunun işdən çıxarılmasına gəldikdə, hüquqşünas dedi ki, bu barədə fikir bildirmək mümkün deyil:** "Düzü, mən Akif Çovdarovun oğlunun hansı təhsil müəssisəsini bitirməsi, hansı savada, qabiliyyətə malik olması barədə dəqiq məlumata malik deyiləm. Onun öz vəzifəsinin öhdəsindən gəlib-gəlməməsindən də xəbərsizəm. Amma əgər o, qanuni əsaslarla işə qəbul olunubsa, atası işdən çıxarıldıqdan sonra özünün də işdən azad olunmasının tərəfdarı deyiləm. Ola bilər ki, Akif Çovdarov cinayət əməlləri ilə məşğul olsun, amma onun oğlu çox qabiliyyətli, özünə hörmət edən bir insan olsun. Belə hallar da ola bilər. Ümumilikdə mən istənilən şəxsin atasının cinayətkar əməllərinə görə cəzalandırılmasının tərəfdarı deyiləm".

A.Çovdarovun oğlu ilə bağlı yayılan məlumatlarda bir məqam diqqəti cəlb edir. Bildirilir ki, işdən çıxmazdan bir neçə gün əvvəl Ruslan Çovdarova işə davamiyyətsizliyinə və intizamsızlığa görə töhmət verilmişdi.

❑ Vüqar MURAD

# "Azərinşaat"ın işçiləri Cahangir Hacıyevdən pullarını istəyir

## Şirkətin 5 aydır maaş ala bilməyən əməkdaşları yenidən aksiya keçirmək istəyirlər

**Beynəlxalq Bankın İdarə Heyətinin sabiq sədri Cahangir Hacıyevə məxsus olduğu iddia edilən "Azərinşaatservis" MMC şirkətinin 5 aydır maaş ala bilməyən əməkdaşları yenidən aksiya etmək qərarına gəliblər.**

Musavat.com-a daxil olan məlumata görə, işçilər şirkətlə işə qəbul olarkən müqavilə bağlasalar da, maaşlarını vaxtında ala bilmirlər. İşçilər bildirirlər ki, işlədikləri ayın haqqını alana qədər "Azəryolservis" ASC-nin qarşısına toplaşaraq, orada aksiya edəcəklər. Onlar həmçinin qeyd edirlər ki, işlədikləri müqavilədə şirkətlə bağladıqları müqavilədə qeyd olunan iş saatından çox çalışıblar. Lakin əlavə saatlar bir yana heç təyin olunan maaşlarını da ala bilmirlər. Aksiya edən şəxslərin əksəriyyəti rayon sakinləridir. Məlumata görə, şirkətin təkcə Lənkəran-Masallı layihəsində 250 işçi çalışıb. Onlar həmçinin qeyd ediblər ki, bir müddət öncə "Azəryolservis" ASC-nin qarşısında keçirdikləri aksiyadan sonra maaşlarının veriləcəyi ilə bağlı işçilərə söz verilib. Lakin deyilən sözlərə əməl olunmayıb.



Cahangir Hacıyev

Onu da qeyd edək ki, qurumun işçiləri 13 oktyabr tarixində də aksiya keçirmişdilər. Əldə etdiyimiz məlumata görə, həmin aksiyadan sonra şirkətin Ələt qəsəbəsində çalışan əməkdaşlarının bir qisminin maaşları ödənilib. Lakin digər əməkdaşlar hələ də maaş ala bilmirlər.

Xatırladaq ki, "Azərinşaat" MMC respublikada birinci dərəcəli yolların tikintisi ilə məşğuldur.

❑ Əli RAİS

YENİ MÜSAVAT
N 241 (6269) 30 oktyabr 2015

**"İstefa mədəniyyəti" deyilən bir anlayış var. Yəni insan çalışdığı sahədə, tutduğu vəzifədə, ona həvalə olunan işin öhdəsindən gələ bilməyəndə və ya ümumiyyətlə, fəaliyyəti çərçivəsində uğur qazana bilmirsə, öz istəyi ilə istefa verməli və geri çəkilməlidir. "İstefa mədəniyyəti" siyasi aləmdə xüsusi önəm kəsb edir. Dünyanın bir çox ölkələrində bu mədəniyyət olsa da, Azərbaycan hələ ki formalaşmayıb. Azərbaycanda heç bir məmur, deputat vəzifəsindən, mandatından öz xoşu ilə imtina etmir. Hətta heç bir uğurunun olmamasına baxmayaraq, məmurlar yenə də vəzifəsindən dörd əllə bərk-bərk yapışır. Ta ki, dövlət başçısı həmin şəxsin vəzifəsindən azad edilməsi haqda sərəncam verənə qədər...**

# Azərbaycanda "istefa mədəniyyəti" niyə yoxdur?

**Bu tendensiya müxalifətdə də hökm sürür...**

Maraqlıdır, niyə digər ölkələrdə olduğu kimi, Azərbaycanda da "istefa mədəniyyəti" formalaşmayıb?

**Müsavat Partiyasının başqan müavini Elman Fəttah** belə bir idarəetmə sistemində istefa mədəniyyətini heç vaxt olmayacağını dedi: "İstefa mədəniyyəti peşəkar siyasətin əsas nümunələrindən biridir. O, yalnız normal, müasir siyasi sistemlərə uyğun idarə olunan dövlətlərin hökumətlərində baş verir. İnsanlar qabiliyyətlərinə, inandıqları dəyərlərə, qazandıqları nüfuzuna görə hansısa vəzifələrə ya seçilirlər ya da təyin olunurlar. Gedən proseslər onların həmin dəyərlərinə, inanclarına, yaxud siyasətlərinə uyğun olmadığı zaman istefa verib çəkilirlər və bu cür məsələdə iştirakçı olmaq istəmədiklərini bildirirlər. Azərbaycanda bu məsələlər avtoritar təfəkkürlə idarə olunduğu üçün hər hansısa bir vəzifəyə, istər seçkili orqanlara, istərsə də təyinatlı orqanlara yalnız bir şəxsin iradəsinə, onun şəxsi qənaətinə görə təyin olunur. Əsas meyar da sədaqət olduğu üçün belə bir keyfiyyət, yəni "istefa mədəniyyəti" formalaşa bilmir. İstefa həm də şəxsi keyfiyyət, siyasi mədəniyyətdir".

**Son günlər MTN-də baş verənlərə nəzər salan E.Fəttah bəzi general rütbəsi daşıyan şəxslərin şəxsi keyfiyyətinə görə heç serjant səviyyəsində olmadığını dedi:** "Əgər hərbiləşdirilmiş strukturlarda vəzifə tutmuş şəxslər dövlətçilik ənənələrinə, qabiliyyətə, nüfuza, zabit şərəfinə arxalanmış olsaydı, o zaman zabit şərəfini əsas tutaraq istefa verən generallara rast gələ bilərdik. Bütün məsələlər ölkənin idarəetmə sisteminin mahiyyətindən doğur. Belə bir idarətmə sistemində istefa mədəniyyətini heç vaxt görməyəcəyik".



**Elman Fəttah:** "Belə bir idarəetmə sistemində istefa mədəniyyəti heç vaxt olmayacaq"



**İqbal Ağazadə:** "Demokratik prinsiplər o həddə çatmalıdır ki, insanlar vəzifədən getməyi faciə kimi qəbul etməsinlər"

**Ümid Partiyasının sədri İqbal Ağazadə Azərbaycanda bu mədəniyyətin formalaşması üçün zaman lazım olduğunu dedi:** "Yanaşmalarda, təyin etmələrdə və formalaşan hakimiyyət qollarında uzunmüddətli təcrübə və peşəkarlıq lazımdır. Buna zaman lazımdır, birdən-birə formalaşmır. Demokratikləşmə, demokratik idarəetmə o həddə çatmalıdır ki, insanlar vəzifədən getməyi faciə kimi qəbul etməsinlər".

**AXP sədri Pənah Hüseyn istefa mədəniyyəti məsələsinin bir az qlamur məsələ olduğunu bildirdi:** "Məncə, diqqət istefa mədəniyyətinə yox, istefaya göndərmələrə və əgər təqsirkar varsa, onun cəzalandırılmasına yönəlməlidir. Son vaxtlar işdən çıxarılaraq həbs edilənlərin çoxu cinayətkardır. Cinayətkar son ana qədər niyə istefa verməlidir ki?! Məntiqlə məsələnin bu cür qoyulması bir az absurddur".

**ADP sədri Sərdar Cəlaloğlu isə bildirdi ki, əgər bir insan rüşvət və saxta yolla vəzifəyə gəlibsə, oradan dörd əllə yapışacaq, nəinki istefa verəcək:** "Hakimiyyətə gəlmə mədəniyyəti olmadığına görə istefaya getmə mədəniyyəti də yoxdur. Əgər saxta seçki ilə biri gedib deputat olursa, rüşvət verib məmur təyin edilirsə, o adam istefa verər? İstefa mədəniyyəti qanuni yollarla hakimiyyətə gəlməyin əlamətidir ki, xalq ondan narazı qalanda dərhal tutduğu postu tərk edir. Əgər bir insan vəzifəyə rüşvət və saxta yolla gəlibsə, o ölənə qədər dörd əllə vəzifəsindən yapışacaq. Çünki ora pul verib. İstefa mədəniyyəti hakimiyyətin təşkil olma mədəniyyətinin əlamətidir. O ölkələrdə istefa var ki, orada hakimiyyət qanuni yolla formalaşır".

❑ **Günel MANAFLI**

# "Bu şeir bir xəta idi, çap olunmamalıydı..."



Vaqif Bəhmənli

## Əbülfəs Qarayevə mədhiyyə yazdığı üçün töhmət alan şair Vaqif Bəhmənli səhvini etiraf etdi

**Mədəniyyət və Turizm Nazirliyinin Kitab dövriyyəsi və nəşriyyatlarla iş şöbəsinin müdiri, şair Vaqif Bəhmənlinin (Quliyev) nazir Əbülfəs Qarayevə həsr etdiyi şeirinə görə töhmət alması son günlərin ən çox müzakirə olunan mövzularındandır.**

### Şeirin dərc olunduğu "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid isə "Vaqif o şeiri məmur kimi yox, şair kimi yazıb" deyir

V.Bəhmənli olke.az saytına açıqlamasında ona verilən töhmətin haqlı olmasından danışıb. Şair deyib: "Çox sayda yazılarım çıxıb və çoxlu da şeirlərim işıq üzü görüb. Şeirlərin çoxunda Azərbaycan poeziyasının yeni mənzərəsi yaranır. Hər halda, tənqidçilər belə deyirlər. Bunlar haqda danışan yoxdur. Ümumiyyətlə, o şeir çap olunmamalı idi. İnsanın səhvi olur da. Bu da bir xəta idi".

**V.Bəhmənli həmçinin bildirib ki, bu, onun ilk ithaf şeiri deyil:** "Mənim ithaflardan ibarət bir qəzet səhifəsi həcmində şeirlərim çıxıb. Hətta kitablarımın birində ayrıca ithaf bölməsi var və 40 adama şeir həsr etmişəm".

**Şair eyni zamanda bunun mədhiyyə olmadığını da vurğulayıb.** "Tanıyanlar bilirlər ki, mən məddahlıqdan uzağam və necə şəxsiyyətəm" deyən V.Bəhmənli ümumiyyətlə bu mövzuda çox danışmağın əleyhinə olduğunu deyərək, töhməti ədalətli adlandırıb.

**Şeirin dərc edildiyi "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid isə bu mövzu ilə bağlı musavat.com-un suallarını cavablandırıb.**

***- Rəşad bəy, hekayə belədir ki, şair daha öncə bu şeiri nazirə oxusa da, sonuncu onu bəyənməyib və bunun üzə çıxarılmamasını istəyib. Amma Vaqif Bəhmənli bugünlərdə onu sizin qəzetinizdə dərc etdirib və beləcə məsələ böyüyüb. Şeiri dərc edəndə onunla bağlı daha öncə baş verənləri bilirdizmi?***

- Biz Vaqif Bəhmənlinin şeirlərini hər zaman çap edirdik. Yubiley öncəsi də çap edirdik. Həmin gün də mən o şeirləri oxumamışdım. Onu müavinlərim oxuyublar. Həmin gün mən Saatlıda Əflatun Amaşovun seçicilərlə görüşündə idim. Ona görə də mən qəzet çıxandan sonra onu oxudum. Bəlkə də mən redaksiyada olsam, o şeirləri oxusam, Vaqif müəllimə deyərdim ki, ola bilsin ki, bu məsləhət deyil, bu şeiri verməyək. Amma Vaqif də onu məmur kimi yazmayıb ki, şair kimi yazıb. Şair, vətəndaş Bəhmənlinin vətəndaş Əbülfəs Qarayevə sevgisinin nümunəsi idi, onu göstərib. Uzun illərdir Vaqif Bəhmənli Gənclər Nazirliyində Əbülfəs Qarayevlə birgə işləyib. Mənə elə gəlir ki, bu gün Azərbaycan ictimaiyyətinin bu qədər də bu şeiri ictimailəşdirməsi və şairi bu qədər küncə sıxması düzgün deyil, insafdan və ədalətdən sayılmır. Şairin yaşadığı həyata qarşı da hörmətsizlikdir. Ona görə də bütün bu kampaniyanı aparanları, xüsusən də bu saytları və sosial şəbəkədə hay-küy salanları qınayıram şiddətlə.



Rəşad Məcid

***- Bu məsələdə "525-ci qəzet"in nüfuzuna hər hansı zərbə dəyibmi, sizcə? Çünki yazanla yanaşı, onu çap edən nəşrin də üzərinə məsuliyyət düşür...***

- Bizim qəzetdə o qədər şeirlər çap olunub ki... Mədhiyyə şeirləri də, digər insanlar haqda şeirlər də çap olunub. Vaqif müəllimin elə şeirləri çap olunub ki, cəmiyyətdə birmənalı qarşılanmayıb. Ona görə də bu hadisəni "525-ci qəzeti"in çox gözəl piarı hesab edirəm. Arzu edirəm ki, davam eləsinlər. Bu həftə Musa Yaqubun da şeirlərini çap edəcəyik. Arzu edirəm ki, bütün o şeirsevənlər diqqətlə "525-ci qəzet"i izləsinlər.

***- Hər halda, bu, ilk nümunədir ki, bir mədhiyyəyə görə hansısa şair cəzalandırılır. Həm də şeirin ünvanlandığı şəxs tərəfdən... Sizcə, nəyə görə?***

- Mənə elə gəlir ki, töhmət şeirə görə deyil. Sadəcə, şeirin ətrafında ürəkbulandırıcı ab-hava yaradan sosial şəbəkə istifadəçilərində, özünü qəhrəman sayan sayt rəhbərlərindədir. Bir şairin şeirinə görə onu bu qədər qınamaq hesab edirəm ki, çox ədalətsiz bir işdir.

❑ **Sevinc TELMANQIZI**

## Noyabrda 3 gün iş olmayacaq

**Nazirlər Kabinetinin qərarına əsasən 9 noyabr Dövlət Bayrağı Günü qeyri-iş günü olacaq.**

Azvision.az-ın məlumatına görə, noyabrın 7-si və 8-i şənbə və bazar gününə düşdüyündən Azərbaycan vətəndaşları noyabrda 3 gün istirahət edəcəklər, altıgünlük iş həftəsi ilə işləyənlər üçün 2 gün istirahət günü olacaq. Qeyd edək ki, noyabrın 12-si Konstitusiya Günü kimi qeyd edilsə də, Əmək Məcəlləsinə əsasən, iş günü hesab olunacaq. Milli Dirçəliş Günü - noyabrın 17-si də iş günüdür.



# Müxalif xalq...

**Hüseynbala SƏLİMOV**

**Bəli, 21-ci əsrə bəzən kommunikasiya əsri də deyirlər. Amma mən düşünmürəm ki, əvvəllər əlaqələr, kommunikasiya daha zəif idi. İndi bizim sərəncamımızda hər şey var. Amma tənbəlləşmişik, onları lazımi istiqamətə yönəldə bilmirik...**

Əvvəllər isə heç də belə deyildi. Ona görə ki, istək vardı. Məhz bu istək İsmayıl bəy Qaspıralı kimi bir ümumtürk fenomenini yetişdirmişdi. Bəli, indi beləsi yoxdur...

Kimsə deyə bilər ki, bəlkə heç ehtiyac yoxdur?! Amma niyə ki?.. Ehtiyac elə həmişə var, işığa, nura və ünsiyyətə həmişə ehtiyac olduğu kimi...

Bəli, indi keçək mətləbə... Rusiya mətbuatında Krım tatarları ilə bağlı bir yazı oxudum. Yazı mənə çox təsir etdi. Ona görə yox ki, çox yaxşı bir yazı idi - yox, sadəcə, bir rus təhlilçisinin Rusiya imperiyasının Krım tatarlarını yenidən öz orbitinə cəlb etmək yolunda qarşılaşdığı maneələrlə bağlı ortabab yazısı idi. Amma yazı məni bir qədər keçmişə apardı...

İndi heç kim keçmiş AXC-ni xatırlamaq istəmir. Səbəbi də aydındır. O vaxtkı AXC-ni hamı bugünə görə xatırlamaq istəmir - ona görə ki, cəmi bir il hakimiyyətdə olan AXC bizi elə bir girdaba, elə bir uçuruma yuvarladı ki, bu bəladan nə vaxt qurtaracağımızı hətta təsəvvürümüzə gətirə bilmirik...

Fəqət, mən bu məsələdə hakim olmaq niyyətində deyiləm. Kim necə fikirləşirsə, qoy, fikirləşsin. Mənim bununla işim yox. Sadəcə, yadıma düşdü ki, o illərdə AXC-nin toplantılarında, hətta qərargahında Krım tatarlarına, qaqauzlara, Orta Asiya türklərinə, Şimali Qafqaz türklərinə rast gəlmək adi hal idi...

İndi isə bunların heç biri yoxdur. Axtarsan partiyaların heç əməlli-başlı qərargahları da yoxdur... Amma onda... Yadıma gəlir, hətta onda biz türklərin toplantısını da keçirə bildik. Hətta Sibir türklərindən də gələnlər vardı...

O vaxtki təəssüratımdan bu gün yadımda qalan odur ki, biz qaqauzları, bir də Krım tatarlarını çox yaxşı başa düşür, anlayırdıq... Sonradan, üstündən az qala on il keçəndən sonra mən Krım tatarlarını Polşada gördüm. O vaxt da anlaşma problemi olmadı...

Qərəz, məsələ heç bunda da deyil. Rusiya Krımı təkrar götürdü. Amma tatarları hələ tam "götürə" bilməyib. Krımda təxminən 250 min tatar var və bu yerli əhalinin təxminən 13 faizini təşkil edir...

O qədər də çox deyil... Amma bundan azı üç dəfə az olan Qarabağ ermənilərini Rusiya artıq 30 ildir ki, başımıza bəla edib! Bundan üç dəfə az olan ermənilər üçün dünyanın bəzi ölkələri elə "muxtariyyat" tələb edirlər ki, hətta Ermənistandakı ermənilərin özlərinin belə "muxtariyyat"ı yoxdur...

Tatarların İ.Stalin vaxtında deportasiyası da maraqlı olub. Təsəvvür edin, bu xalqın içindən neçə nəfər Sovet İttifaqı Qəhrəmanı çıxıb! Amma bunun fərqinə varmadılar. Dedilər ki, tatarlar guya faşist Almaniyası ilə əməkdaşlıq edib! Di gəl, belə əməkdaşlıq harada olmamışdı?! Məgər işğal olunmuş ərazilərdə rusların bir hissəsi faşistlərlə əməkdaşlıq etmirdimi?..

Təbii ki, işğal olunmuş bütün ərazilərdə belələri vardı. Amma deportasiya olunan tatarlar, çeçenlər və b. oldu. Fərqinə varmadan 1944-cü ildə Krım azad ediləndən bir həftə sonra tatarları Orta Asiyaya deportasiya etdilər. "Xalqlar atası" üçün, yəni İosif Stalin üçün bütöv bir xalqı bir yerdən başqa yerə sürgün etmək elə də çətin iş deyildi...

Qərəz, tatarların başına belə bir müsibət gəldi... Həmin dövrün ağrıları hələ bu gün də yaşanır...

İndi, bir az əvvəldə qeyd etdiyim kimi, Rusiya Krımı ikinci dəfə götürdü və bu yoldan daşınmaq niyyətində deyil, baxmayaraq ki, heç kim Krımın ilhaqını tanımır...

Deyilənə görə, Krım tatarları indi daha çox Ukraynaya meyl edirlər. Rusiya da bunun fərqindədir. Krım tatarlarını öz orbitinə qaytarmaq istəyir. Amma bunu bir o qədər də ürəkdən istəmir, çünki əvvəldə qeyd etdiyim kimi, tatarlar özlərinin vətənlərində azlıqdadırlar, əhalinin cəmi 13 faizini təşkil edirlər. Ona görə də onlar Rusiya üçün hava-su kimi aktual deyillər...

Həm də Rusiya heç vaxt istəməz ki, Krım yenidən dönüb türk torpağı olsun. Halbuki bir azacıq əvvəldə adını çəkdiyim Krım tatarı İ.Qaspıralının hətta bu xüsusda çox maraqlı fikirləri var...

O, Rusiyanın gələcəyi ilə bağlı da maraqlı fikirlər deyib. Rusiya təhlilçiləri vaxt tapıb bunları da oxusaydılar çox yaxşı olardı...



# Putin Azərbaycanı indi də İŞİD-lə hədələyir

## Sülhəddin Əkbər: "Rusiya tam olmasa da, qismən istədiyinə nail olub..."

**Oktyabrın 28-də Bakıda MDB dövlətləri təhlükəsizlik orqanları və xüsusi xidmətləri rəhbərləri Şurasının 39-cu toplantısı keçirilib. Azərbaycanı müşavirədə milli təhlükəsizlik nazirinin müavini Hilal Əsədov təmsil edib.**

Toplantıda MDB ölkələri, o cümlədən Azərbaycan üçün əhəmiyyət daşıyan və sual doğuran bəzi fikirlər səsləndirilib. Əsas müzakirə mövzularından biri hazırda dünyanın əsas başağrısına çevrilən İŞİD-lə bağlı olub. Xüsusilə Rusiya Federal Təhlükəsizlik Xidmətinin (FTX) rəhbəri Aleksandr Bortnikovun fikirləri daha çox diqqət cəlb edib. O bildirib ki, hazırda terror strukturlarının tərkibində dünyanın 100-dən çox ölkəsinin vətəndaşı döyüşür və belə muzdluların payı 40% təşkil edir.

FTX rəhbəri onu da qeyd edib ki, "Ərəb baharı" çərçivəsində dünyada və regionda bəzi ölkələrin İŞİD terror təşkilatına verdiyi dəstək nəticəsində bu terror təşkilatının gücü artıb və bu yolla həmin ölkələr öz siyasi niyyətlərinin həyata keçirilmək istiqamətində fəaliyyətlərini gücləndirib. Bortnikov İŞİD-ə qarşı birgə mübarizədən də danışıb.

Toplantıdan sonra Novo-Oqarevoda MDB xüsusi xidmətlərinin rəhbərlərini Rusiya prezidenti Vladimir Putin qəbul edib. Onun görüş zamanı səsləndirdiyi "dünyada heç bir dövlət təkbaşına terrorizmə qarşı səmərəli mübarizə apara bilməz" kimi fikirləri İŞİD-ə qarşı birgə mübarizənin anonslarından biri kimi qəbul olunur. "Sizin xidmətlərinizin səmərəli işi olmadan dövlətlərimiz inkişaf edə bilməz", - deyə Rusiya prezidenti bildirib. O, birliyin təhlükəsizlik orqanları rəhbərlərinin görüşünü və onların işinin əlaqələndirilməsini həddindən artıq mühüm adlandırıb, habelə bu əlaqələndirmənin səmərəliliyini artırmaq zərurətini qeyd edib.

Putinin bu fikirləri yarım ay öncə MDB ölkələrinin sammitində səsləndirdiyi fikirlərlə üst-üstə düşür. Onun belə çağırışlarla qonşuluğundakı ölkələri də Suriya konfliktinə qoşmaq məqsədini sezməmək mümkün deyil. Xüsusilə Putinin bu istəyi BMT-nin son assambleyasında ABŞ prezidenti Barak Obama ilə aralarında yaşananlardan sonra daha aydın görünür.



Sülhəddin Əkbər

Rusiyanın apardığı siyasətin coğrafi arealına daxil olan ölkələrdən biri Azərbaycandır. Şimal qonşumuz daim ölkəmizi özünə müttəfiq görür, dostluq əlaqələrini saxlamağa çalışır. Bu da gələcəkdə hansısa bir planda Azərbaycanın da iştirakının olması məqsədini daşıyır.

**Milli təhlükəsizlik nazirinin sabiq birinci müavini Sülhəddin Əkbər hesab edir ki, məsələnin obyektiv və subyektiv səbəbləri var:** "İŞİD doğrudan da dünyanın ən təhlükəli terror təşkilatlarından biridir. Özü də ən qəddarı hesab olunur. İŞİD sıralarında doğrudan da MDB-yə daxil olan ölkələrin vətəndaşları var. Azərbaycan da bura daxildir. Bu da həmin ölkələrə ciddi təhlükədir. Onlar dəfələrlə Rusiya, Azərbaycan və digər ölkələri təhdid ediblər. Bütün dünyada terrorizmlə mübarizə beynəlxalq xarakter daşıyır. Çünki terrorizmin sərhədləri yoxdur. Rusiya Suriyada ABŞ koalisiyasına qarşı alternativ yaratmaq və sıralarını genişləndirmək niyyətindədir. Bu koalisiyaya Rusiya və İrandan başqa qoşulan yoxdur. Eyni zamanda Rusiya MDB ərazisində təsirini artırmaq istəyir. Hazırda ABŞ və Rusiya təkcə Suriya məsələsində yox, digər məsələlərdə də rəqabət aparırlar. Əfqanıstanda terror təşkilatları Türkmənistan, Özbəkistan, Tacikistan sərhədlərində mövqe qazanmaq uğrunda vuruşurlar. Orada əsasən ABŞ bu terror təşkilatlarına qarşı vuruşur. Bu, Rusiyanı ciddi narahat edir. ABŞ-ın Mərkəzi Asiya ölkələri arasında nüfuzu artır. Çünki bu ölkələr terrorizmə qarşı mübarizə kimi ABŞ-a yaxınlaşa bilərlər. Eyni amilləri Qafqaza da aid etmək olar".

**S.Əkbər "dünyada heç bir dövlət təkbaşına terrorizmə qarşı səmərəli mübarizə apara bilməz" fikirlərində yer alan nüanslara da toxundu:** "Dünyanın ən güclü ölkələri belə terrorizmdən sığortalanmayıb. Azərbaycanda xüsusi xidmət orqanları deyəndə ki, bizə təhlükə yoxdur, MTN nəzarət edir, sonunda hər şeyi gördük. MTN-in necə nəzarət etdiyi son günlərdə ortaya çıxdı. Putinin bu sözləri obyektivdir. Yaranmış vəziyyətdən Rusiya istifadə edərək, MDB ölkələri daxilində öz təsirini artırmaq, güclü dövlətləri bu regiona buraxmamaq siyasəti aparır".

**Sabiq MTN-çi Rusiya dövlət başçısının Mərkəzi Asiyada sərhədləri möhkəmləndirmək barədəki çağırışına da toxundu:** "Dünyada terrora qarşı mübarizə strategiyasının müxtəlif tərəfləri var. Birinci, önləyici strategiyaya üstünlük vermək. Yəni təhdidi önləmək, real təhlükəyə çevrilməsinə imkan verməmək. İkincisi, mümkün qədər terrorizmlə mübarizəni öz sərhədlərindən uzaqlarda aparmaq istəyirlər. Bu cəhətdən Rusiya çalışır ki, MDB ölkələrini qorusun. Eyni zamanda Rusiya məqsədlərini həyata keçirməyə, imperiyanın keçmiş sərhədlərinə nəzarəti ələ almağa çalışır. Bunun üçün Azərbaycana da təzyiqlər edir. O cümlədən Azərbaycanın İranla sərhədlərini nəzarətə götürmək istəyir. Ermənistanın İran və Türkiyə ilə olan sərhədlərini də qoruyur. MTN-də baş verən proseslər MDB sammitində qəbul edilən qərarları arxa plana keçirdi. Sammitdə Rusiya istəyinə tam çatmasa da, Azərbaycan sərhədlərinin birgə qorunması barədə razılığı əldə edə bilməsə də, ona nail oldu ki, böhran hallarında xüsusi qruplar yaradılır, bu qruplar birlikdə sərhədlərə nəzarət edəcəklər. Sərhədlərin birgə qorunması və möhkəmləndirilməsi üçün iki mühüm qərar qəbul edilib. Rusiya tam olmasa da, qismən istədiyinə nail olub".

**❑ Cavanşir ABBASLI**

# Şeyx Rusiyanın Suriyadakı əməliyyatlarını dəstəklədi

## "Biz dinə zidd ideyaları olan terrorçu təşkilat İŞİD-i qəti surətdə pisləyirik"

**"İŞİD İslamı parçalamaq məqsədilə düşmənlərin yaratdığı bir qurumdur". APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bunu Moskvada keçirilən "Din və dünya" mövzusunda III Moskva Beynəlxalq Forumunda çıxışı zamanı MDB-nin Dinlərarası Şurasının həmsədri, Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə söyləyib.**

A. Paşazadə bildirib ki, indiki dövrdə beynəlxalq terrorçuluğun bütün təzahürləri ilə real mübarizə olduqca vacibdir: "Bu mübarizə milliyyətdən və dini etiqadından asılı olmayaraq bütün insanlar üçün prioritet vəzifə olmalıdır. Biz dinə zidd ideyaları olan terrorçu təşkilat İŞİD-i, İslamı öz qərəzli maraqlarını həyata keçirmək üçün silaha çevirənləri qəti surətdə pisləyirik. Bu gün biz Avropanın bəzi ölkələrində zorakılıqdan və terrordan canını qurtararaq doğma torpaqlarını tərk etməyə məcbur olan miqrantlara qarşı qeyri-humanist münasibətin şahidi oluruq. Biz Allahın bəxş etdiyi müqəddəs nemət - insan həyatına qəsd edənləri, millətlərarası və dinlərarası münaqişələri, miqrasiya və demoqrafik fəlakətləri planlaşdıranları və həyata keçirənləri qınayırıq. Çünki bütün bunlar dünyada sülhü və sabitliyi təhlükə altına qoyur. Allah onların qeyri-insani hərəkətlərini heç zaman bağışlamayacaq".



Allahşükür Paşazadə

**A. Paşazadə qeyd edib ki, Azərbaycan Rusiyanın İŞİD-i məhv etmək üçün həyata keçirdiyi antiterror əməliyyatlarını dəstəkləyir:** "İŞİD İslamı dünya ictimaiyyətinin gözündə terror, zorakılıq və vandalizmlə bağlamağa cəhd göstərən bir qurumdur. Əminəm ki, ekstremizm və radikalizmlə dövlətlər, ictimai-siyasi xadimlər və dini qurumlar birlikdə mübarizə apara bilərlər. Azərbaycan öz növbəsində bütün gücünü beynəlxalq terrorizmlə mübarizəyə yönəldir. Azərbaycan prezidenti İlham Əliyev bu yaxınlarda çıxışında qeyd edib ki, beynəlxalq terrorla mübarizə hazırkı mərhələdə bütün ölkələrin prioritet vəzifəsi olmalıdır və yalnız qüvvələrimizi birləşdirməklə qarşıya qoyulan məqsədə çata bilərik".

YENİ MÜSAVAT
N 241 (6269) 30 oktyabr 2015

**Xəbər verdiyimiz kimi, Azərbaycan Beynəlxalq Universitetinin (ABU) keçmiş rektoru Elşad Abdullayevin qardaşı prokurorluqdan işdən qovulub. Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanovun daha öncəki açıqlamasına görə, Zakir Qaralovun müvafiq əmri ilə Baş Prokurorluğun Prokurorluqda istintaqa nəzarət idarəsinin prokuroru Elsevər Abdullayev xidməti və icra intizamının kobud pozuntusu hallarına yol verdiyinə görə prokurorluq orqanlarından xaric edilib.**



# Elşad Abdullayevin əvəzinə qardaşını həbs edəcəklər?

## Abdullayevlərlə bağlı hakimiyyətin yeni planı olduğu bildirilir

Respublika Prokurorluğunun məlumatında da qeyd edilib ki, Elsevər Abdullayev Baş Prokurorluğun Prokurorluqda istintaqa nəzarət idarəsinin prokuroru vəzifəsində işlədiyi müddətdə dəfələrlə əmək, xidməti və icra intizamının pozuntusu hallarına yol verdiyinə görə barəsində intizam tənbehi tədbirləri tətbiq edilib. Bundan başqa, Baş Prokurorluğun Prokurorluqda istintaqa nəzarət idarəsi üzrə vəzifə bölgüsünə dair sərəncamla konkret rayon prokurorluqlarında istintaq edilən cinayət işlərinə və araşdırma materiallarına prokuror nəzarətinin həyata keçirilməsi həvalə olunmuş Elsevər Abdullayev xidməti və icra intizamının kobud surətdə pozulması hallarına yol verdiyi üçün idarə rəhbərliyi tərəfindən dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq, bundan nəticə çıxarmayıb. Eyni zamanda o, öz işini Baş Prokurorluq üzrə "Prokurorun ibtidai araşdırmaya prosessual rəhbərliyinin səmərəliliyinin artırılması, istintaq və təhqiqat üzərində nəzarətin gücləndirilməsi və bu sahədə işin daha da təkmilləşdirilməsi haqqında" əmrin tələblərinə uyğun qurmayıb.

Göründüyü kimi, ortada ciddi ittihamlar var. "Yeni Müsavat"a daxil olan məlumata görə, bu hadisə təkcə E.Abdullayevin işdən çıxarılması ilə yekunlaşmayacaq. Hakimiyyət bu ailə ilə olan haqq-hesabı çürütmək niyyətindədir. Fransada mühacir həyatı yaşayan sabiq rektoru həbs edə bilməyən hüquq-mühafizə orqanları hədəf olaraq onun qardaşını götürüblər. Xüsusən də prokurorluğun 28 oktyabr bəyanatındakı ittihamlar sıradan görünmür. Bunların həbslə yekunlaşacağı da bu baxımdan istisna deyil.

"Yeni Müsavat" xatırladır ki, Elşad Abdullayev də son günlər qohumlarına qarşı hücumların artdığını açıqlayıb. Bu hücumlardan biri onlardan E.Abdullayevdən imtina etmələrinin tələb olunması da ilginc detaldır. Bugünlərdə ciddi islahatlara başlayan, təmizləmə əməliyyatı keçirən hakimiyyətin keçmişdən qalan haqq-hesabları çürüdəcəyi də bu baxımdan gözləniləndir.

Daha bir maraqlı məqam isə 2013-cü ilin iyulunda Elsevər Abdullayevin şahid kimi ifadə verdiyi Ağır Cinayətlər Məhkəməsində dediklərdir. Həmin vaxt iş adamı Arzu Kazımovun məhkəməsinə qatılan Elsevər Abdullayev qardaşının itkin düşməsi ilə bağlı adlar açıqlamış, yüksək çinli məmurların bu məsələ ilə bağlı onlara dediyi fikirləri ifadəsində üzə çıxarmışdı. Bu, həmin vaxt da hakimiyyətdə ciddi narazılıq doğurmuşdu.

Elsevər Abdullayev də digər qardaşı kimi Arzu Kazımovu Rövşanə adlı bir xanımın vasitəsilə tanıdıqlarını deyərək, Mahirin tapılması müqabilində Zahid Dünyamalıyevə çatdırılması üçün Kazımova pul verdiklərini iddia etmişdi. Ümumilikdə 3 milyon verildiyini deyən şahid pulun müəyyən hissəsinin onun yanında verildiyini qeyd etmişdi: **"Arzunun Qız Qalasının yanında üzərində heç bir yazılmayan və içərisi türmə otaqlarına oxşayan ofisi var. Qapısında qoluzorlular dayanırdı. Mən 25 ildir prokurorluqda işləyirəm və dəfələrlə adam oğurluğu ilə bağlı işlərdə dövlət ittihamçısı olmuşam. Bu adamları görəndə nə qədər təhlükəli bir oyun olduğunu anladım və bildim ki, mütəşəkkil dəstə fəaliyyət göstərir. Buna görə də qorxumuzdan səsimizi çıxarmırdıq".**

**Sevinc TELMANQIZI**



## MTN-də 740 min dolları alınan iş adamı baş prokurorla görüşdü

**Baş prokuror Zakir Qaralov iş adamı Vidadi Əzizi qəbul edib. Bu barədə lent.az-a ailənin vəkili Fəxrəddin Məmmədov məlumat verib.Vəkil bildirib ki, baş prokuror şəxsən Vidadi Əzizi qəbul edərək, onun şikayətini dinləyib. İş araşdırılması üçün Baş Prokuror yanında Korrupsiya qarşı Mübarizə Baş İdarəsinə verilib.**

Şəhid ailəsi Milli Təhlükəsizlik Nazirliyi əməkdaşlarının fəaliyyəti ilə bağlı ictimaiyyətə müraciət edib. Şəhid Mübariz Əzizovun ailəsinin ölkə başçısına ünvanladığı müraciətdə qeyd edilib ki, ailənin oğlu Vidadi Əziz xarici ölkədə qazandığı pulu 2012-ci ilin aprel ayında Azərbaycan banklarının birinə köçürüb. V.Əziz Azərbaycanda biznes qurmaq üçün həmin pulu bankdan çəkib. Bu zaman 20-25 maskalı şəxs onu bankın qarşısında saxlayaraq, Milli Təhlükəsizlik Nazirliyinə gətirib. Nazirlikdə ona işgəncə verilib və 740 min ABŞ dolları zorla əlindən alınıb. Ölkə rəhbərliyinə ünvanlanan məktubda yazılıb ki, MTN-də V.Əzizin başına silah dirəyərək, bundan sonra quracağı biznesində onunla şərik olacaqlarını deyiblər: "Milli Təhlükəsizlik Nazirliyi sistemində adam oğurluğu, soyğunçuluq və quldurluqla məşğul olan yüksək rütbəli məmurlardan təşkil olunmuş mütəşəkkil cinayətkar dəstə fəaliyyət göstərir. Bu dəstənin üzvləri tərəfindən xaricdə biznes fəaliyyəti ilə məşğul olan oğlumuz Vidadi Əziz 2012-ci ilin aprel ayında Azərbaycanda yenidən biznes fəaliyyəti qurmaq, yeni iş yerləri açmaq məqsədilə xarici ölkədə qazandığı halal pullarını köçürdüyü bankdan alıb çıxarkən, Bakıda 20-25 nəfərdən ibarət maskalı şəxslər tərəfindən oğurlanaraq qoluna qandal vurulub nazirliyə aparılıb, orada işgəncələrə məruz qalıb, başına silah dirənib. Sonda 740 min ABŞ dolları əlindən alındıqdan sonra azadlığa buraxılan oğlumuzu bu yolla onları da qazancına və biznesinə şərik etməyə məcbur ediblər".

Goranboy rayon Xanqərvənd sakinləri, şəhid atası Əsgər Əzizov, şəhid anası Almaz Əzizova qarşılaşdıqları bu özbaşınalıqla bağlı hüquq-mühafizə orqanlarına ünvanladıqları müraciətləri geri çəkmək üçün dəfələrlə hədə-qorxu, təhdid aldıqlarını qeyd ediblər.

Qeyd edək ki, məsələ ilə bağlı ailə prezident İlham Əliyevə, daxili işlər naziri Ramil Usubova və baş prokuror Zakir Qaralova müraciət ünvanlayıb. Lent.az-ın əldə etdiyi məlumata görə, baş prokurorun birinci müavini Rüstəm Usubov sabah şikayətçi ailəni qəbul edəcək.

# Hərbi Əks-kəşfiyyat İdarəsinə yeni rəis təyin olundu

## Ekspert: "Bu qurumun Milli Təhlükəsizlik Nazirliyi tərkibində fəaliyyəti daha məqbuldur və düzgündür"

**Milli təhlükəsizlik nazirinin birinci müavini general-leytenant Mədət Quliyevin əmri ilə nazirliyin Hərbi Əks-kəşfiyyat Baş İdarəsinin rəisi vəzifəsi general-mayor Hafiz Musayevə həvalə olunub. H.Musayev bu təyinata qədər həmin idarənin rəis müavini olub.**



MTN-in Hərbi Əks-kəşfiyyat Baş İdarəsinin əvvəlki rəisi, general-mayor Nizami Talış oğlu Şirinov vəzifəsindən azad edilib. Xatırladaq ki, Nizami Şirinov uzun illər ərzində MTN-də çalışıb. O, bu vəzifəyə təyin olunana qədər Prezident yanında Xüsusi İdarənin əməkdaşı olub.

Ehtiyatda olan polkovnik-leytenant **Üzeyir Cəfərov** Hərbi Əks Kəşfiyyat İdarəsinin keçmiş rəisi general Nizami Şirinovla bağlı danışarkən qeyd etdi ki, onu yaxşı tanıyır: "Nizami Şirinov keçmiş SSRİ zamanı mənimlə bərabər eyni qoşun növündə xidmət keçib. Daha sonra isə sırf hərbi əks- kəşfiyyatçı zabit kadrları hazırlayan Novosibirsk Ali Hərbi Məktəbini bitirib. Uzun illər bu sahənin peşəkarı olub. İndi bəzi şəxslər onun guya milis sistemində çalışdığını yazırlar. Hesab edirəm ki, Hərbi Əks-Kəşfiyyat İdarəsi bu günə kimi Silahlı Qüvvələrimizlə bağlı vəzifələrin öhdəsindən layiqincə gəlib və bu işi bundan sonra da peşəkarcasına davam etdirəcəkdir".

**Bəzi ekspertlər Hərbi Əks-Kəşfiyyat İdarəsinin MTN-in tabeliyində olmağındansa, onun Müdafiə Nazirliyi sisteminə verilməsini daha uyğun hesab edir. Lakin Ü.Cəfərov fərqli düşünür:** "Bu qurum təkcə Müdafiə Nazirliyini deyil, bütün güc strukturlarını əhatə etdiyinə görə, elə əvvəlki qaydada fəaliyyətini davam etdirməlidir".

**Sabiq milli təhlükəsizlik zabiti Arzu Nağıyev isə "Yeni Müsavat"a dedi ki, bu qurum Müdafiə Nazirliyi və onun tərkibindəki qurumların, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının, Dövlət Sərhəd Xidməti və onun tərkibindəki qurumların və qanunvericiliyə uyğun yaradılmış digər hərbi qurumların əks-kəşfiyyat təminatını həyata keçirir:** "Siz bu məsələyə tək Ermənistanla bağlı kontekstdən yanaşmayın. Ümumiyyətlə, müharibə gedən dövlətə qarşı əməliyyat və digər məsələləri ayrıca qurum həyata keçirir. Daha dəqiq desək, hərbi əks kəşfiyyat erməni və ya digər dövlətlərin diversiyasına və təxribatına qarşı orduda fəaliyyətlə məşğuldur".

**A.Nağıyev bir məqamı xüsusi vurğuladı:** "Burada da tək o iş deyil, xarici xüsusi xidmət orqanlarının şəxsi heyətə qarşı yönəlmiş kəşfiyyat və digər fəaliyyətlərinin aşkarlanması, qarşısının alınması, eyni zamanda silahların, hərbi sursatın saxlanma və daşınması qaydalarının pozulması, döyüş qabiliyyətinin zəiflədilməsinə yönəlmiş təxribatlar, dövlət əmlakının, o cümlədən silah, sursat, hərbi texnika, partlayıcı, zəhərləyici və radioaktiv maddələrin ələ keçirilməsi, talanması, məhv edilməsi hallarının aşkarlanması, qabaqlanması və qarşısının alınması üçün əks-kəşfiyyat tədbirləri həyata keçirir.

Buna görə də məhz bu qurumun Milli Təhlükəsizlik Nazirliyi tərkibində fəaliyyəti daha məqbuldur və düzgündür. Bir vaxtlar bu qurum Xüsusi İdarə adı ilə müstəqil fəaliyyət göstərdi və istənilən effekti vermədi".

**Vüqar MURAD**

## Bakıda 22 yaşlı qız öldürüldü, qohumları morqa hücum etdi

**Bakıda qətl törədilib. Nizami Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, hadisə oktyabrın 29-da saat 11.00 radələrində metronun "Qara Qarayev" stansiyası yaxınlığında qeydə alınıb. 22 yaşlı İlahə Həsən qızı Yusubova oğlan tanışı (adı və soyadı hələlik məlum deyil) tərəfindən küçədə bıçaqlanaraq qətlə yetirilib. Nizami Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, 22 yaşlı İlahəni bıçaqlayaraq qətlə yetirən şəxsin Salyan rayonunda anadan olan, hazırda Sabunçu rayonu Ləhiş bağlarında yaşayan Babək Əliyev olması müəyyən edilib. B. Əliyev könüllü olaraq Sabunçu Rayon Polis İdarəsinin 14-cü Polis Bölməsinə gedərək təslim olub. Polisdən həmçinin bildirilib ki, qətlə yetirilən İ. Yusubova Maştağa qəsəbə sakinidir.**

Sevgilisi tərəfindən öldürülən qızın qohumları Nizami Rayon Məhkəmə-Tibbi Ekspertiza şöbəsinə hücum ediblər.Məlumatı Nizami Rayon Polis İdarəsindən veriblər. Qohumları tələb ediblər ki, mərhumə İlahə Yusubovanın meyiti yarılmasın. Lakin onlar bununla da kifayətlənməyiblər. Şöbənin əməkdaşlarına hücum edərək meyitin onlara verilməsini tələb ediblər. İnsident zamanı şöbənin şüşəsi sındırılıb, əməkdaşlardan birinə xəsarət yetirilib. İdarədən o da bildirilib ki, buna baxmayaraq, cinayətin ağırlığı nəzərə alınaraq meyit yarılacaq və zəruri ekspertiza aparılacaq. Buna görə də şöbə əməkdaşlarının təhlükəsizliyini təmin etmək üçün ərazi polis tərəfindən ciddi mühafizə altına alınıb.

YENİ MÜSAVAT
N 242(6269) 30 oktyabr 2015




Cümə söhbətləri

# Günah xəstəliyinin dərmanı və sağalmağın göstəricisi

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı



**Bismilləhir-Rahmənir-Rahim! Allaha həmd olsun ki, bizlərə Onu xatırlamağı, bəndə olmaq barədə düşünməyi, bəndəçilik üçün çalışmağı nəsib edir. Məhərrəm-Səfər əyyamında yaşayırıq. Ruhiyyələrimizin, tutumlarımızın, durumlarımızın bu əyyam üçün uyğunlaşdırılması çox önəmlidir.**

## Özünəqayıdışın hədəfi nədir?

Mübarək dinimizin ən önəmli məsələlərindən biri - insanın özünəqayıdışıdır. Özünəqayıdış nə məna, nə səciyyə daşıyır? Mübarək dinimizin bizə buyurduğu bütün əməllər, mübarək aylar, əyyamlar ona görədir ki, Allaha itaət bizim ruhumuza, canımıza hopsun. Özünəqayıdışın hədəfi - itaətdir, bəndəlik ruhiyyəsinə yiyələnməkdir. Bütün zikrləri, istiğfarları müəyyən sayda demək ona görə tövsiyə edilir ki, insan öz durumunda bu zikrlərin təsirini duya bilsin. İnsanın bunları qəlbən deməsi, gerçəkdən bunları yaşaması üçün özünü Allah hüzurunda hiss etməsi lazımdır, günahlarına, yanlışlarına, büdrəmələrinə diqqət etməsi gərəkdir. Təkəbbürlü insan heç bir zaman özünü günahkar bilməz. Özünü böyük bilən, özünü bəyənən, özündən razı olan insan nədən peşman ola bilər ki?! Bu insan nədən tövbə edə bilər ki?! O, bir ömür yaşayar, amma bütöv bir ömür zərər içərisində olar.

Amma insan bütün imkanlara, bütün bu mübarək aylara, əyyamlara, əlverişli zaman və məkanlara gərək fürsət kimi baxsın. Günahlarını, yanlışlıqlarını, xətalarını, səhvlərini gərək nəzərdən keçirsin, Allah hüzurunda peşmançılığı olsun. Gərək özünü hesaba çəksin, onu günaha stimullaşdıran xüsusiyyətləri müəyyən etsin, onlardan qurtulma yollarını təhlil etsin. Səmimi qəlbdən bağışlanma diləyən hər bir bəndəni Rəbbimiz bağışlayar. Səmimi qəlbdən Allaha tərəf qayıdış istəyən heç bir bəndəni Allah Təbarəkə və Təala əliboş qaytarmaz.

## Dualarımızı həbs edən, nemətləri uzaqlaşdıran günahlar

İnsan günahlardan təmizlənmək istəyirsə, gərək hər şeydən öncə öz günahları haqqında dərindən düşünsün. İnsan əgər öz günahları haqqında düşünsə, səhvlərinə, büdrəmələrinə diqqət etsə, demək, Allah ona böyük bir nemət lütf edib. Deməli, Allahın həmin insana yazığı gəlib, ona bağışlanmaq üçün fürsət yaradıb. Elə günahlar var ki, dualarımızı həbs edir. Bu günahlar dualarımızın qəbul olunmasına imkan vermir. İnsan dualar edir, amma onların qəbul olunmadığını görür. İnsanın dualarının müstəcab olmasına mane olan günahları var. Günahlar var ki, duanı həbs edir.

**Mübarək "Kumeyl" duasında da məhz bu günahların bağışlanması istənilir:** "Allahım, bağışla bizim o günahlarımızı ki, dualarımızı həbs edib!" Adam bunu başa düşsə ki, günahları var və bu günahların içərisində bəziləri var ki, duaların qəbul olunmasına mane olur - o, həqiqi tövbəkar ruhiyyəsinə malik olar.

Adam başa düşməlidir ki, onun üçün ayrılan nemətləri günahlar aradan apara bilər. Allah Təala insana nemət ayırır, amma biz elə günahlar edirik ki, nemətlərdən məhrum oluruq. Allah Təala ruzi ayırır, günahlar etməklə o ruzilərdən məhrum olur insan. İnsan səbəbləri bəzən başqa yerlərdə axtarır, amma səbəb elə insanın özündədir. İnsan səmimi qəlblə Allah hüzurunda tövbə etsə, istiğfar etsə, bağışlanmasını istəsə, bu günahlardan qurtula bilər.

## Günah xəstəliyinin dərmanı və şəfasının göstəricisi

**Həzrət Əli (ə) buyurur:** "Günahlar - xəstəlikdir. Onların dərmanı - Allahdan istiğfar, bağışlanmaq diləməkdir və şəfası - bir daha o günahı təkrar etməməkdir". Günahların müalicəsi - yalnız həqiq tövbə diləmə, istiğfar və Allahdan bağışlanma istəməkdədir. Hər bir böyük və kiçik xəstəliyin bir müalicə üsulu, dərmanı var. Günahlar da böyük xəstəlik olduğundan onlardan qurtulmaq üçün, müalicə olunmaq üçün dərmanlara ehtiyac var. Bu dərman - istiğfardır. Gərək insan öz həyatında diqqətli olsun, Rəbbi ilə rabitəsini artırsın, Rəbbi ilə danışsın, tövbə etsin. Tövbə etməmişdən öncə etdiyi günahları yadına salsın, onlar üçün səmimi peşmançılıq çəksin, daha sonra istiğfar etsin. Bunlar hamısı günah xəstəliyinin müalicəsidir.

Əgər bir xəstəlikdən tam müalicə olunub sağaldığımızı bilmək istəyiriksə, gərək baxaq ki, həmin xəstəliyin simptomları bizdə yenə qalıb, ya yox. Əgər hələ də qalıbsa, deməli, sağalmamışıq və müalicə hələ davam etdirilməlidir. Günah xəstəliyindən müalicə olunmaq da belədir. Haradan bilə bilərik ki, bu xəstəlikdən şəfa tapmışıq, ya yox? Əgər günahlarımızı artıq təkrar etmiriksə, deməli, şəfa tapmışıq. Əgər həmin günahlar yenə təkrarlanırsa, deməli hələ müalicəsi başa çatmayıb.

Misal üçün, bir insandır, Allah etməsin, pis sözlər işlədir. Yaxud qeybət edir, yaxud yalan danışır. Çox pis günahlardandır. İnsan gərək bu günahlarına görə istiğfar etsin. Nədən bilsin ki, şəfa tapıb? Əgər daha təkrar etmirsə, deməli, şəfa tapıb. Günahlar xəstəlikdir, onların dərmanı - istiğfar, şəfası isə bir daha o günahı təkrar etməməkdir.

## Günahdan ləzzət alan zəlil olar

**Həzrət Əmirəlmöminin (ə) buyurur:** "Pislikdən çəkinmək, yaxşılıq etməkdən üstündür". İki cür vəziyyət var. Bir var ki, insan yaxşılıqlar edir. Bir də var ki, insan pis işlərdən çəkinir, günah etmir. Günah etməmək, pis iş görməmək hətta müəyyən mənada daha üstündür yaxşı iş görməkdən. Çünki bir tərəfdən günahı edib, bir tərəfdən yaxşı iş görməyə dinimiz müsbət baxmır. Dinimiz deyir ki, sən pis iş görmə, günah etmə - bu, daha üstündür. Çünki yaxşı işlərdən sonra görülən pis işlər, günahlar, yaxşı işlərin də təsirini aradan aparır. Birinci dərəcəli məsələ budur ki, bizlər pis işlərdən, günahlardan çəkinək.

**Vay olsun o insanın halına ki, günah edir, ona görə peşman olmaq əvəzinə, əksinə, ondan ləzzət alır, o günahında israr edir. Həzrət Əli (ə) buyurur:** "Allah günahdan ləzzət alan kimsəni zəlil edər". Allah etməsin ki, günahlardan ləzzət alaq. Adam sübh namazına durmaya, namazını tərk edə, ğinaya qulaq asa - bütün bu kimi işlərdən ləzzət ala. Adamlar var ki, digərlərinin haqqını yeyir, digərlərinin qəlbini qırır, insanların arasını vurur və belə işlərdən ləzzət alırlar. Bu insanın xəstəliyi artıq sağalmaz dərəcəsindədir. Bu insan günahlarına görə o qədər peşman olmayıb, o qədər tövbə etməyib ki, artıq günah etməkdən ləzzət alır. Allah belə bir insanı zəlil edər. Bu durumda olan insan zatən elə zəlildir də. Bu insan gör nə qədər bədbəxt, faciəli durumdadır ki, günahlardan ləzzət almaqla yaşayır.

## Günahlardan qurtuluş üçün bəsirət və əzm gərəkdir

Böyük mərcələrdən biri buyurur ki, bizim günümüzdə düşdüyümüz böhranlardan çıxmanın iki mühüm yolu var. Bu böhranlardan çıxış iki mühüm mövzuya əməl etməkdən keçir. Bunlardan birincisi - bəsirət, ikincisi isə əzmdir. Bizlər fərdi həyatımıza, ailə həyatımıza, ictimai, iqtisadi həyatımıza nəzər salsaq, görəcəyik ki, həyatımızda əsasən bu sadə tövsiyəyə əməl etmirik, başqa şeylər axtarırıq. İnsan fərdi qurtuluşa çatmaq istəsə, gərək bəsirətli və əzmkar davransın.

Əgər insanın bəsirəti, tanıması olsa, özünü, Rəbbini, nə üçün yaradıldığını, haradan gəldiyini, hara gedəcəyini tanısa, qəbri barədə düşünsə, mövcudiyyəti haqqında düşünsə - onun halında mütləq bir tərpəniş olar. Eyni zamanda əzmi olsa ki, tövbə etsin, həqiqi tövbəkar olmağa iradəsi olsun - Allah ona inayət edər. Buna görə də, bir çox zikrlərin, istiğfarların bəlli sayda deyilməsinin tövsiyə edilməsinin dəqiq əsası var. Əgər insan iqrar etdiyi istiğfarla yaşasa, bu, onun canına hopar, bütün halı dəyişmiş olar. Belə adamın vəziyyəti fövqəl dərəcədə dəyişər.

## Zəmanə Sahibinin (ə.f) Əba Əbdillaha (ə) "Mövlamız" deməsinin mənası

**Həzrət Məhdinin (ə.f) Qasim ibni Əla Həmədaniyə yazdığı məktubda bir incə mətləb var. Qasim ibni Əla Həmədani yəmənli idi və İmam Həsən Əsgərinin (ə) də dövründə o Həzrətin (ə) vəkillərindən olub. İmam Məhdi (ə.f) ona yazdığı məktubunda buyurur:** "Cümə axşamı günü, şəban ayının 3-ü - bizim mövlamız Həzrət Hüseyn (ə) ibn Əlinin (ə) mövlududur". Yaşadığımız məhərrəm ayı dönəmində bu incə buyuruşa diqqət etmək xüsusilə yerinə düşər. Bu buyuruşda mühüm hissə "bizim mövlamız" hissəsidir. Zəmanə Sahibi (ə.f) Əba Əbdillaha (ə) "bizim mövlamız" deyə müraciət edir. "Bizim" sözü ilə bağlı üləma bir sıra fikirlər irəli sürür. Burada Əhli-beyt (ə) də nəzərdə tutula bilər - hansı ki, Həzrət Məhdi (ə) Əhli-Beytin (ə) təmsilçisidir. Qeyd olunur ki, burada Hüseynsevərlər də nəzərdə tutula bilər. Üləmanın "mövlamız" kəlməsinin üzərində xüsusi təfsiri yanaşmaları var. "Mövla" anlayışı gələn yerdə əbd, nökər, qul var. Allah mövladırsa, Onun mövlalığı, yəni xaliqliyi, rəbbliyi, rəzzaqlığı, vücudi sahibliyi var. Biz də Onun vücudi qullarıyıq. Allah Təala varolma verir, biz varıq, O, verməsə, biz yoxuq. Bizim sahibimizdir. Allahla bağlı "mövla"nın anlamı budur. Allahdan qeyrisi ilə bağlı mövla ibarəsi gələndə də, yenə bunun müqabili quldur, əbddir. Bu anlamda hədisin şərhində üləma buyurur ki, İmam Məhdi (ə.f) Əba Əbdillah (ə) üçün "bizim mövlamız" deməklə əslində demək istəyir ki, Əba Əbdillah (ə) bizi özünün Kərbəladakı nurani qanı ilə zülmdən, şirkdən, qaranlıqdan, bataqlıqdan xilas edib və bu anlamda bizlərin mövlasıdır. Kimlər ki, Kərbəla qanının bərəkətinə cahillikdən, qaranlıqdan, o zülmətdən, şirkdən, bataqlıqdan çıxıb, İmam Hüseyn (ə) öz qanı ilə onlara mövla, ağa olub. İmam Hüseyn (ə) bu anlamda Hüseyn (ə) nökərlərinin mövlasıdır. Zəmanə Sahibi (ə.f) özünü Əba Əbdillahın (ə) nökərləri, xidmətçiləri zümrəsində təqdim edir. Xoş olsun Əba Əbdillahın (ə) vücudi bəndəliyini arzulayanların halına!

## Əba Əbdillah (ə) onu mövla sayanların oddan azad edilməsini istəyər

Burada daha bir incə çalar var. Mövla, qul sahibi Allaha xatir qulu azad edə bilər. Deyər ki, mən səni Allaha xatir azad etdim. Bizim Mövlamız - İmam Hüseyn (ə) Qiyamət günü bu qulları, nökərləri üçün bütün ağrılardan və acılardan azad olmağı Rəbbindən istəyər. Rəbbindən də nə istəsə, cavabı verilər. Çünki, İmam Hüseynin (ə) nəyi var idisə, vermişdi. O Həzrət (ə) Allah yolunda hər bir şeyindən keçmişdi.

Belə bir məşhur əhvalat var: bir çoban olur. Şah gəzintiyə çıxır, ac olurlar. Yolda həmin çobana rast gəlirlər. Çobanın özünün bir heyvanı olur, kəsib verir onlara. Nə südü, nə çörəyi, nə oturacaq yeri var idisə, hamısını verir şaha. Şah qayıdır, həmin kəsdən əvəz çıxmaq istəyəndə, var-dövlətinin yarısını verəndə də az olur. Çünki onun nəyi var idisə, verib, şah isə olanından yarısını verir. Baxmayaraq ki, kəmiyyətcə ondan çoxdur. O çoban nəyi var idisə, vermişdi, bu isə olanından yarısını verir.

**İmam Hüseynin (ə) nəyi var idisə, verib. Əli Əsğəri (ə), Əli Əkbəri (ə), Əbülfəzli (ə), ən əzizlərini... Hər şeyini Allah yolunda verib. İndi İmam Hüseyn (ə) onu mövla hesab edənlərə, o kəslərə ki, öz qanı ilə alıb və onlar da indi Əba Əbdillaha (ə) nökər olmağa hazırdır, onları Qiyamət günü azad etməyi Rəbbindən istəyir. İmam Hüseyn (ə) xidmətçiləri Qiyamət günü azad olarlar.**

**Bu gün dünyada müsəlmanların fərdi, ailə, ictimai, iqtisadi həyatında inkişafı ona görə də bəsirət və əzmə bağlıdır. Əgər bizim Hüseynvari bəsirətimiz olsa, hallarımız xeyli dəyişər. Bu istiqamətdə hərəkət etməyə əzmkarlıq göstərsək, Allah bir qədər də güc və qüvvət verər.**

**Allahım, bizləri İmam Hüseynin (ə) yolunu gedənlərdən, o Həzrərti (ə) özünə mövla hesab edənlərdən qərar ver! Amin!**

YENİ MÜSAVAT
N 241 (6269) 30 oktyabr 2015

# Facebook və WhatsApp kimi terminlər dilçilik lüğətinə salınıb

**Xəbər verdiyimiz kimi, bugünlərdə Azərbaycan dilinə rəsmi olaraq 2500 yeni termin daxil edilib. Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının sədr müavini Sayalı Sadıqova bu barədə "Yeni Müsavat"a açıqlama verib. Mütəxəssis bildirib ki, yeni terminlər müstəqillik dövrümüzdən bu günədək dilimizə daxil olan və dilin öz imkanları hesabına yaranan sözlərdir:**




"Terminlər müxtəlif sahələr - informatika, iqtisadiyyat, riyaziyyat, kimya, tibb sahələri üzrədir. Yeni terminlərin sırasında informatika sahəsi üzrə olan sözlər çoxluq təşkil edir. Çünki informatika və texnika ilə bağlı sözlərin mənbəyi daha çox Avropada yaranır, inkişaf edir. Buna görə də həmin lüğətdə ingilis dilindən alınan sözlər kifayət qədərdir.

Bu terminlər dilimizdə məhdud sahələr üzrə işlək vəziyyətdə olsa da Azərbaycan dilinin orfoqrafiyası, eləcə də izahlı lüğətinə daxil edilməyib. Məsələn, xüsusi su vannası - "çakuzi", lotereyada böyük məbləğli uduş - "çekpot" sözləri və s.

Son dövrlər isə facebook", WhatsApp terminləri yarandı və onlar da nə orfoqrafiyada, nə də texnoloji lüğətdə öz əksini tapmırdı. Lakin hazırda bu terminlər həmin lüğətdə yer alıb. Hər bir terminin isə həm izahı, həm də Azərbaycan, rusca, ingiliscə və türkcə qarşılığı verilir".

Sayalı Sadıqov onu da qeyd etdi ki, yeni terminlərin dildə sıx işlədilməsi üçün müxtəlif elm sahələrini əhatə edən 16 bölmə var ki, adıçəkilən terminlər həmin şöbələrə göndərilir və lazımi mütəxəssislərə çatdırılır.

Yeni terminlərin bir neçəsini təqdim edirik:

**AYFON -** Səs, rabitə və görüntü imkanlarını özündə birləşndirən simsiz multimedia qurğusu.

**AYPƏD -** İnternetə fərdi qoşulma cihazı; klaviaturasız noutbuk.

**CAKUZİ -** Suyun xüsusi sistem üzrə dövr etdiyi və yüksək təzyiqlə vurulduğu vanna.

**CEKPOT -** Lotereyada böyük məbləğli uduş.

**ÇAT -** İnternet şəbəkəsi dialoq rejimində qısa mətn məlumatları ilə mübadilənin təşkili. Bu halda dialoq iştirakçıları klaviatura vasitəsilə sorğu göndərir və displeyin ekranında cavabı alır.

**ÇİPS -** Lay-lay doğranmış və yağda qızardılmış kövrək, xırçıldayan kartof dilimləri.

**DATA KART -** İnformasiya əməliyyatlarını yerinə yetirmək üçün elektron kart.

**DEVALVASİYA -** Pul vahidinin, qızıl məzənnəsinin rəsmi azalması, yaxud milli valyutanın qızıla, gümüşə, xarici valyutaya görə məzənnəsinin aşağı düşməsi deməkdir. İnflyasiya, tədiyyə balansının defisiti (kəsiri) pul dövriyyəsinin pozulması nəticəsində digər ölkələrin valyutası ilə müqayisədə bir ölkənin valyutasının dəyişmə məzənnəsinin birdəfəlik aşağı düşməsi, qiymətdən düşməsidir. Devalvasiya zamanı ixrac olunan mallar ucuzlaşır, idxal olunan mallar isə bahalaşır.

**DİCEY -** Səsyazma daxil edilməklə, şərh, zarafat və reklamla müşayiət olunan musiqili verilişin və ya əsasən musiqi üzərində qurulmuş radio proqramının aparıcısı.

❑ **Xalidə GƏRAY**

# "Azərsığorta" şəhid ailəsinə dəyən ziyanı ödəmək istəmir

## Ailə maliyyə naziri Samir Şərifovdan kömək istəyir

**"Sığortalara nəzarət Maliyyə Nazirliyində olduğu üçün Samir Şərifova müraciət edərək xahiş edirəm - 4 aydır şəhid ailəsini süründürən və haqqını qəsb edən "Azsığorta" şirkəti barəsində ölçü götürün və bizə dəyən ziyanı ödəsinlər" - bu sözləri "Yeni Müsavat"a müraciət edən Nazilə Bədrəddin qızı Təhməzova yazır. Şəhid ailəsi qeyd edir ki, maliyyə naziri Samir Şərifova müraciət edib kömək istəyir:**

"Yoldaşım Əmirulla Rufulla oğlu İbrahimov 1994-cü ilin yanvarın 29-da Ağdərə döyüşlərində şəhid olub. Bu il iyulun 9-da Şirvan şəhərində oğlum Vasif İbrahimov "Daevo Gentra" markalı, Az 99 AB 681 dövlət nişan nömrəli şəxsi avtomobilin arxa tərəfinə "Mersedes" markalı maşın çırpılıb. Qəza zamanı oğlumun maşınının arxa hissəsi yararsız hala düşüb. Qəzanı törədən avtomobil "Azsığorta şirkətində sığortalandığından oğlumun maşınına cəmi 2 min 620 manat təmir xərcləri verildi. Lakin maşının təmir üçün aparıldığı "Daevo servis" dəyən ziyanın 5 min 500 manat olduğunu bildirir. Lakin "Azsığorta" şirkəti qəti şəkildə dəyən ziyanı tam şəkildə ödəməkdən imtina edir. Ona görə də oğlumun maşını servisdə qalıb, düzəltdirə bilmirik. Şəhid ailəsinin dolanışığı hardandır ki, qalan pulu aparıb verək, maşın düzəlsin? Ona görə də sığorta şirkətlərinə nəzarət edən nazirliyin rəhbəri kimi Samir Şərifovdan xahiş edirik ki, maşının təmir xərclərinin tam şəkildə ödənilməsinə göstəriş versin".

❑ **E.HÜSEYNOV**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarıın dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



**Elan**

**Qəbələ rayonu Vəndam kəndində parket fabriki bütün avadanlıqları ilə birlikdə, çox ucuz qiymətə (7500 AZN) təcili satılır.**
**Tel: 070 335 90 15**

**Binəqədi-Xırdalan şossesi yaşayış massivi, Respublika Dövlət Yol Polisinin yaxınlığında əlverişli qiymətə 4 sot torpaq sahəsi satılır. 2,5 metr hündürlükdə daş hasarın içərisində, əla yerdə. İşıq, qaz, su 15 m. məsafədə yerləşir. Yenilənmiş kanalizasiya xətti, meyvə ağacları var. Yol asfalt-beton.**
**Tel: (050) 614-40-24**

**Elan**

**Buzovna dairəsində, Daxili Qoşunların yanında 7 sot torpaq satılır. Sotu 7500 AZN.**
**Əlaqə telefonu: (050) 343-59-72**

**Elan**

**Məhərrəmov Kamrana Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetindən verilmiş tələbə bilet itdiyi üçün etibarsız sayılır.**



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34





# "Ailəm" paketi mobil rabitə bazarında böyük marağa səbəb olub

**Pulsuz danışıq fürsətini təqdim edən bu paketə mövcud "Nar" abunəçiləri ilə yanaşı, digər mobil operatorların istifadəçiləri də qoşula bilərlər**

**"Ailəm" paketi daxilində abunəçilərə 4 nömrə arasında pulsuz danışıq təqdim olunur. Paketdən yararlanmaqla, abunəçilər öz ailələri, dostları və yaxınları ilə 31 dekabr 2015-ci il tarixədək pulsuz ünsiyyət imkanı əldə edirlər. "Ailəm" paketinə daxil olan 4 nömrənin hər birinə 1 AZN ilkin balans və 100 MB internet trafiki hədiyyə edilir.**

**"Ailəm" paketinin üstünlüklərindən nəinki bütün "Nar" istifadəçiləri, hətta digər operatorların abunəçiləri də faydalana bilərlər. Bunun üçün onlar, sadəcə, öz nömrələrini MND (mobil nömrə daşınması) vasitəsilə "Nar" operatoruna keçirməlidirlər.**

**"Ailəm" paketində ölkədaxili digər istiqamətlərə olan zəngin dəqiqəsi isə "Unikal" tarifinə (ölkədaxili bütün istiqamətlərə 4 qəpik) əsasən hesablanır. 31 dekabr 2015-ci il tarixindən sonra isə "Ailəm" paketinin istifadəçiləri öz aralarında cəmi 1 qəpiyə danışa biləcəklər.**

**Beləliklə, "Nar" tərəfindən istifadəçilərə təqdim edilən yeni "Ailəm" paketi böyük uğura imza atdı və kampaniya sayəsində minlərlə Azərbaycan ailəsi öz aralarında pulsuz danışıq imkanından yararlana bildi. "Ailəm" paketi barədə daha ətraflı məlumatı mobil operatorun internet səhifəsindən ttps://www.nar.az/pages/default/pageName=campaigns_catalog&id=1377/ əldə etmək olar.**

YENİ MÜSAVAT
Son səhifə
N 241 (6269) 30 oktyabr 2015

# Zibil yığırdı, kraliça oldu...

Tailand sakini, küçələrdə kağız toplayıb sataraq öz ehtiyaclarını ödəyən qız ölkənin ən gözəl qızı seçilib. Khanitta Phasaeng gözəllik kraliçası seçildikdən sonra zibil topladığı məlum olub. Bundan sonra gənc qızla bağlı bir çox məlumatlar üzə çıxmağa başlayıb. Məktəbi bitirdiyi üçün yarışda iştirak edə bildiyini deyən qızın əslində orta məktəbdə oxuyarkən işləməyə başladığı məlum olub.



Yarışın təşkilatçıları onun məktəbi bitirmədiyini öyrənsələr də təhsillə bağlı heç bir şərt olmadığından ondan gözəllik tacını almayıblar. Gənc qız yarışmaya əmisinin müraciəti əsasında qatıldığını və təhsillə bağlı onun yanlış məlumat verdiyini dilə gətirib. Gözəllik kraliçası anasına kömək etmək üçün zibil yığdığını və bundan utanmadığını da öz çıxışında bildirib.



## Facebookun sahibi barədə bilinməyənlər

Facebookun sahibi Mark Zukerberq barədə bilinməyənlər:

- dünyanın ən populyar sosial şəbəkəsinin sahibi Zukerberq ən gənc milyarderlərdəndir. O, 25 milyard dollarlıq sərvətə malikdir. Fəqət, pullarına rəğmən, Mark çox sadə və təvazökar insandır.
- facebookdakı əməkdaşlarının boss yox, lider saydıqları M.Zukerberq ayda 1 dollar maaşa işləyir. O, həftənin 5 günü, hər gün 10 saat ofisdə olur.
- maraqlı odur ki, Markın ofisdə onlarla masası var və bu masalar facebook əməkdaşlarının masalarından heç nə ilə fərqlənmir.
- xanımı Prissilla Çen ilə orta səviyyəli amerikalıların yaşadıqları villada ömür sürən Markın macar çoban iti cinsindən olan Bist adlı iti də var.
- Bistin facebookdakı səhifəsinin 2 milyon daimi izləyicisi qeydə alınıb.
- facebookun loqosunun mavi rəngdə olmasına gəldikdə isə Mark Zukerberq deyir: "Rəng seçimi ilə bağlı problemlərim var. Məhz bu səbəbdən də mavi rəngi seçdim".
- Harvard Universitetində oxuduğu illərdə yunan, latın, fransız və ivrit dillərində sərbəst danışması ilə diqqət çəkir (milli.az).

# Dikdaban ayaqqabıya qadağa

**İtaliyanın Abruzzo bölgəsindəki universitetdə "yüksək zəlzələ riski" səbəbi ilə dikdaban və platformalı ayaqqabıları geymək qadağan edilib. Qadağalar haqqında məlumat verən universitet rektoru Anna Amanzi İtaliyanın Ansa xəbər agentliyinə müsahibəsində yeni qərarın qadınların geyimi ilə əlaqədar olmadığını deyib.**

Onun sözlərinə görə, Abruzzo bölgəsi seysmik zonada yerləşdiyindən tələbələri qorumaq üçün belə bir qərar verilib. Yeni qərar tələbələr və müəllimələr tərəfindən birmənalı qarşılanmayıb. Bir çoxları universitet rəhbərliyinin daha ciddi məsələlər haqda düşünməsinin daha yaxşı olacağını deyir. Başqaları yeni qadağa ilə razılaşmasa da, bölgənin tektonik zonada yerləşməsi amilini doğru sayırlar.

2009-cu ildə Abruzzo bölgəsinin Laquila şəhərində baş verən zəlzələdə 286 nəfər, 1915-ci ildə Avezzanoda baş verən zəlzələdə isə 30 nəfər həyatını itirib.






## Film kimi qaçış planı

**Braziliyanın Coronel Odenir Guimaraes həbsxanasında yatan bir kişi Hollivud filmlərinə bənzəyən bir plan hazırlayaraq oradan qaçmağa çalışıb. Belə ki, ölkənin ən böyük narkotik mafiyalarından birinin üzvü olan Clodoaldo Antonio Felipe adlı məhkum gerçək insan üzünə bənzəyən maska taxaraq həbsdən qaçmağa cəhd göstərib.**

Başına parik taxan və qadın paltarı geyinən məhkumun bu əşyaları haradan aldığı məlum deyil. Qeyri-adi dəqiqliklə hazırlanmış qaçış planı və qadın maskası məhkumun qapıya qədər gəlməsinə kömək olub. Lakin yaşlı qadının uzunboylu olması və nəzarətçilərin onun içəri girişini xatırlamadıqlarını deməsi qaçış planının sonu olub. Nəzarətçilər onun kimliyi haqda araşdırma apardıqları zaman hər şey üzə çıxıb. Üzündəki maska çıxarıldıqdan sonra narkotik qaçaqçısı yenidən kamerasına göndərilib.




**QOÇ** - Mövcud sıxıntılarınız qlobal planlarınızın reallaşmasına mane olur. Yaxşı şeylər haqqında düşünün. Çünki insan fikri gələcəyi formalaşdırır. Pula görə kiminləsə düşmənçilik yaratmayın.

**BUĞA** - Naharaqədərki dövrdə mübahisəli situasiyalara cəlb olunma ehtimalınız böyükdür. Bu səbəbdən də hər xırda məsələyə ciddi reaksiya verməməlisiniz. Saat 15-dən sonra maraqlı görüşləriniz gözlənilir.

**ƏKİZLƏR** - Yaxşı olar ki, əsas vaxtınızı maliyyə istiqamətində xərcləyəsiniz. Bütün variantları gözdən keçirin. Əyləncəyə, yaxud uzaq səfərlərə aludə olmaq yaramaz. Ulduzların bu tövsiyələrini qulaqardına vurmayın.

**XƏRÇƏNG** - Kosmik fonun ümumi mənzərəsi gərginlikdən xəbər verir. O üzdən bütün enerjinizi təmkinli olmağa yönəltməlisiniz. Əsəbinizlə oynayan adamlarla üz-üzə gəlməməyə çalışın.

**ŞİR** - Atacağınız addımlarda qətiyyətli olsanız, müvəffəqiyyətə yaxınlaşacaqsınız. Nəzərə alın ki, indiki durumda sizə güclü olmaq lazımdır. Bədxah adamları həqiqət və reallıqla məğlub edin.

**QIZ** - Kifayət qədər sərfəli gündür. Təzə və əlverişli sövdələşmələrdə iştirakınızdan tutmuş maliyyə məsələlərinə qədər ulduzlar yardımçınız olacaq. Ona görə də boş oturmamalısınız.

**TƏRƏZİ** - Müəyyən qədər darıxdırıcı olsa da, daxili sabitliyinizi qorumaqla müəyyən rahatlıq tapa bilərsiniz. Ciddi qərarlar qəbul etməyinizə lüzum yoxdur. Axşam qonaq getməyiniz yaxşı olar.

**ƏQRƏB** - Fəaliyyət sahəsində uğurlara yaxınlaşdığınızı bəyan edən Göy qübbəsi aktivliyinizi artırmağı məsləhət görür. Ailə-sevgi və digər münasibətlərdə də vəziyyət xeyrinizə olacaq. Bu gün səfərə çıxmayın.

**OXATAN** - Ən müxtəlif sürprizlərə hazır olun. Oturaq işlərə aludə olmaqdansa, fəallığınızı artırın. Bəxtinizdə qazanc da var. Nahar ərəfəsində cinayət tərkibli və dinə zidd addımlardan yayının.

**OĞLAQ** - Məhəbbət müstəvisində mövcud olan müəmma və anlaşılmazlıqları yoluna qoymaq üçün şanslı vaxtdır. Bu fürsəti fövtə verməyin. Amma işlə bağlı riskli sövdələşmələrdən uzaq olun.

**SUTÖKƏN** - Fəaliyyətlə bağlı xeyli yeniliklərin şahidi olacaqsınız. Ürəyinizcə olan təkliflər alacağınıza da şübhə etməyin. Axşama doğru isə müəyyən təxribatlarla baş-başa qalma ehtimalınız var.

**BALIQLAR** - Nahara qədər hansısa uğurlu cəhdlərə nail olacağınızı düşünməyin. Göstərilən müddətdə yalnız istirahətə fikir verin. Yalan vədlər vermək, əsassız danışmaq zərərinizə ola bilər.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Ölüləri canlandıracaqlar

**İngiltərənin Teesside Universitetində çalışan Simon Mckeovn qarşıdakı 50 il ərzində ölən insanları internetdə 3D halında canlandıracaqlarını iddia edib. İrlandiyalı alim xəritəçəkmə sahəsində istifadə edilən fotoqrametria texnikası vasitəsilə həyatı itirmiş insanların sosial mediada paylaşdıqları şəkil, video və səslər vasitəsilə canlandıra biləcəklərini deyiblər. Çexiyadakı "Yeni bir dünya" sərgisində çıxış edən Mckeovn "gələcəkdə xatirələrimizi yenidən canlandıra biləcəyik. Bu texnologiyanın köməyi ilə sevdiklərimiz heç vaxt ölməyəcək", - deyə açıqlama verib.**



Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Nazim SABİROĞLU
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 5.300